Tovhid.info

# İXVANLAR KİMLƏRDİR? VƏ NƏYƏ XİDMƏT EDİRLƏR?

SAHİB ƏSƏDOV



# İXVANLAR KİMLƏRDİR VƏ NƏYƏ XİDMƏT EDİRLƏR?

**Müəllif:**

Sahib Əsədov

# Müqəddimə

Möhtərəm oxucular! "İslami camaatlar" İslam universitetlərində müstəqil bir elm kimi tədris olunur. Məlumdur ki, Allahın Elçisi ﷺ bu ümmətin 73 firqəyə bölünəcəyi haqqında xəbər vermişdir. Bu xəbər ona qeybdən agah olan xəbərlərdən və onun möcüzələrindən hesab edilir. İslami camaatlar da ilk yaranmış İslami firqələrin tərkib hissəsidir. Bu camaatlardan biri də "İxvanul-Muslimin" camaatıdır. Bu camaatın həqiqi İslam dəvətinə zidd olan metodologiyası bir çox İslam alimləri tərəfindən şiddətlə tənqid edilmişdir. Uzun müddət idi ki ölkəmizdə "İxvanul-Muslimin" təşkilatının zəif və az tərəfdarı olan bir kütlə olduğunu düşünürdüm. Sonrakı təhlillər nəticəsində aydın oldu ki onlar ölkəmizdə də bir kəsim dindarlar arasında hiss olunmadan öz düşüncələrini yayır, hətta bəzi dairələri özlərinə cəlb edə bilirlər.

Bu kitabçanın yazılma səbəbi isə sosial şəbəkələrdə ixvan təfəkkürünü təbliğ edən bəzi ixvanların haqla batili qarışdırmaları, onlardan bəzilərinin isə böyük İslam alimləri haqqında pis fikirlər səsləndirmələri oldu. Bu kitabçanın yazılmasının əsas səbəblərindən biri də yarandığı gündən təkfirçiliyi dəstəkləyən, bir çox radikal dəstələrin yaranmasına səbəb olan, İslamdaxili əqidə məktəblərini batil üzərində "cəm etməyə" çalışan, İslamı şəriət və əməl olmaqdan çox "siyasiləşdirmək", siyasiləşdirərkən də İslamı "təhriflərlə üz-üzə qoyan", bu

təhriflərə "bəraət qazandıran", İslamın təməl prinsiplərini tapdalanmağa hazır hala gətirən "ixvanları" cəmiyyətimizdə bəzi insanların düzgün tanımaması, lakin, bəzilərinin tanıyırmış kimi görünməklə yanaşı bu zərərli fikirləri ölkəmizdə yaymağa cəhd etmələridir. İslam ümməti məzhəb fərqliliklərinə baxmayaraq tarix boyu ümumi İslam qardaşlığını qorumuşdur. Bu müxtəliflik içində öz mənsublarını dondan-dona, rəngdən-rəngə girməyə vadar edən və bununla tanınan "ixvan metodologiyası" sadəcə dində sabitlikdən olduqca uzaq olmasıyla yanaşı dini xəfifə almaq istəyənlər üçün də əlverişli bir fürsət və parlaq "qardaşlıq" şüarını öz siyasi ambisiyalarına nail olmaq üçün istifadə edən bir tələdir. Tarix bizə bu əsrdə "Qardaşlıq, birlik-bərabərlik" şüarını öz məqsədləri üçün istifadə edən çoxlu toplumları göstərmişdir. Hətta "masson" lojalarında belə bu şüardan istifadə olunur. Həqiqətdə isə bu şüarlar arxasında gizlənərək dünyada hansı fəsadların törədildiyi müsəlmanlara məlumdur. Alimlərimiz əbəs yerə "ibrət nəticələrə görə təyin olunur" deməmişlər. İslamdaxili camaatlardan isə ixvanlar qədər bu parlaq şüarları istifadə edən bir tayfa olmamışdır. Lakin təfsilata getdikdə bunun "quru şüar" olmaqdan o yana keçməməsi, "vəhdət" şüarı edən rafizilərlə də ixvanların yaxın olmasına baxmayaraq, indiyə kimi heç bir nəaliyyət əldə etməmələri - əldə olunanların isə müvəqqəti və bərəkətsiz olması - bu çıxışların yalnız bir "şüar oyunu" olduğunu qarşımızda sərgiləməkdədir. Dinin dirçəlməsi insanların mənəvi, etiqadi aspektdən dirçəlməsi ilə olduğu halda, ixvanların getdikləri yolda

əsas məqsəddən yayınmaları müşahidə edilir. Bu yazı ixvanların dini təxəyyülü nəticəsində insanların həqiqi İslami elmlənmədən daha çox İslam etiqadından cahil qalmalarından, ictimai və siyasi fəaliyyətlərini zahirdə "güclü" göstərmələrindən, özlərini mütərəqqi İslam nümayəndələri hesab etmələrindən, əslində isə dinin praktikasında qafil qaldıqları bir çox mühüm məsələlərdən oxucuları agah edəcəkdir. Bu yazı İslami firqələrin batil əməllərinə göz yuman ixvanların çoxsaylı batil firqələri yaxşı göstərərək, tərifləyərək insanların başını "hər bağçadan bir gül" şüarı ilə aldadıb əslində isə "hər batildən bir pay" verənlərinə bir ərməğandır. İslam dinini müasir dövrdə ən çox təhrif edən ixvan təlimini, onun daşıyıcılarının düşüncələrində, təbliğatçılarının əməllərində açıq-aydın olduğunu müşahidə edə bilərik. Bu kitabçada əsasən ixvanların siyasi görüşləri deyil, daha çox onların dini təhrif etməsi məsələsi ələ alınacaqdır.

***Yazdı**: Sahib Əsədov* *Mədinə şəhəri. 06.06.2020.*

## Kitabçada bu mövzulardan danışılacaqdır:

*1 - "İxvanul-Muslimin" camaatının qısa tarixi.*
*2 - İxvanların növləri haqqında qısa bilgi.*
*3 - İxvan alimlərinin bəzi batil inancları.*
*4 - "İxvanul-Muslimin" camaatının rafizi sevgisi.*
*5 - "İxvanul-Muslimin" camaatın təkfir fikirləri.*
*6 - Peyğəmbərlərə qarşı ədəbsiz ifadələr.*
*7 - Peyğəmbərin möcüzələrinin və hədislərin inkarı.*
*8 - İxvanlarda səhabələrə dil uzatmaq məsələsi.*
*9 - İxvan camaatında olan digər mülahizələr.*

## İxvan camaatının qısa tarixi

"İxvanul-Muslimin" təşkilatı dini-siyasi təşkilat olaraq qurulmuşdur. Bəzi müsəlman ölkələrində terror təşkilatı hesab edilərək rəsmi fəaliyyəti qadağan edilmişdir[1]. Ərəbcəsi "İxvanul-Muslimin", dilimizdə isə "Müsəlman Qardaşlar" adlanan bu təşkilat 1928-ci ildə Misirin İsmailiyyə şəhərində Həsən əl-Bənna[2] tərəfindən təsis

---

[1] Cebhe.info. "Müsəlman Qardaşlar" siyasətdən çəkilir? https://cebheinfo.az/dunya/muselman-qardaslar-siyasetden-cekilir Məqalə. Bu təşkilat Misir, Səudiyyə Ərəbistanı, Körfəz ölkələri, Rusiya və s. bir çox ölkələrdə qadağan edilmişdir.
[2] Həsən əl-Bənna (1906-1949): İxvanul-Muslimin təşkilatının qurucusu və ilk lideridi hesab edilir. Misirdə ziyalı ailəsində dünyaya gəlmiş, sufilikdən təsirlənmiş, sonradan müsəlmanlara xidməti üçün bir işlər görmək istəsə də əsas

edilmişdir[3]. Bir müddət sonra hərəkatın fəaliyyəti Qahirə şəhərinə keçmişdir. 30-cu illərdə "İxvanul-Muslimin" təşkilatının Misirdəki ictimai və siyasi fəaliyyəti güclənir və onlar cəmiyyətdə ictimai və siyasi təsirə malik olmağa başlayırlar.

1936-cı ildə Səudiyyə Ərəbistanına gələn Həsən əl-Bənna orada ixvan mərkəzini açıb təbliğatını aparmaq istəyir. Lakin, buna nail olmur.

Bir müddət sonra başqa ölkələrdə də ixvan camaatları formalaşmağa başlayır. 1937-ci ildə Həsən əl-Bənna qərara gəlir ki, camaatın gizli təşkilatını yaratsın. 1941-ci ildə təşkilatın 100 nəfərlik xüsusi üzvünü ilk dəfə Həsən əl-Bənna özü seçir[4].

Həsən əl-Bənna 1949-cu ildə sui-qəsd nəticəsində qətlə yetirilir. Ondan sonra hərəkatın liderliyini 1950-ci ildə Həsən əl-Hudeybi[5] üzərinə götürür[6]. O da 1954-cü ildə

---

hədəfləri yolunda elmi-metodiki və etiqadi səhvlərə yol vermişdir. O bir sıra kitabların da müəllifidir.

[3] Movsuatul-Muyəssərah fil-Ədyən vəl-Məzəhib vəl-Əhzab əl-Muasırah. 1/198. Dərun-Nədvətul-Aləmiyyə. 2014.

[4] Mənəhicud-Dəvət vət-Təyyarat əd-Diniyyə vəl-Fikriyyə. Prof. Əbdür-Rəhim Muğazzəvi. səh. 277. Dərul-Hadara. 2019.

[5] Həsən İsmayıl əl-Hudeybi (1891-1973): Təşkilatın ikinci lideri hesab edilir. Həsən əl-Bənnanın sui-qəsd yoluyla vəfatından sonra təşkilata rəhbərlik etmişdir. Onun bu məqama təyini Həsən əl-Bənnanın vəfat etmədən öncəki vəsiyyəti ilə baş tutmuşdur. 1973-cü ildə Misirin paytaxtı Qahirədə vəfat etmişdir.

[6] Mənəhicud-Dəvət araşdırmaları. səh. 137.

edam cəzası alır, sonra cəzası yüngülləşərək həbs cəzası ilə əvəz edilir.
1952-ci ildə 23 tarixində Misirdəki dövlət çevrilişində "İxvanul-Muslimin" (Müsəlman qardaşlar) təşkilatının da əli olduğu üçün 1954-cü ildə Misir prezidenti Camal Əbdünnasir minlərlə  ixvanları kütləvi şəkildə həbs edir və ya ölkədən sürgün edir[7]. İxvanları həbs etdirən prezident özü də bir il yarım müddətində "İxvanul-Muslimin" təşkilatının üzvü olmuş, sonradan aralarında yaranan bəzi ixtilaflar səbəbilə təşkilatdan ayrılmışdı. Onun təşkilatdan ayrılma səbəblərindən biri kimi əsas iddialardan biri də odur ki, Camal Əbdünnasir ixvanların içində olduğu müddət ərzində ixvanların mənəvi liderinə beyət etməmişdi[8]. Bir müddət sonra o həbs etdiyi şəxsləri azadlığa buraxır və onlara "yeni bir şans verdiyini" açıqlayır. Lakin, ixvanlar 1965-66-cı illərdə bu dəfə dövlət çevrilişinə cəhd məqsədilə gizli təşkilatlanma edir və yenə bu planların üstü açılır, beləcə, kütləvi həbs olunurlar. Onlar bu dəfə Camal Əbdünnasirə qarşı sui-qəsd hazırlamış və bir çox gizli planlar qurmuşdular. İxvanlara qarşı ortada ingilislərlə və Misirin başqa siyasi düşmənləri ilə gizli əlaqələr qurmaq və dövlət çevrilişi ittihamı da var idi. Camaatın üzvlərindən üç nəfər isə edam olunçuşdu: Seyyid Qutub, Yusuf Həvaş və Abdul-Fəttah İsmayıl[9].

---

[7] Movsuatul-Muyəssərah fil-Ədyən vəl-Məzəhib vəl-Əhzab əl-Muasırah. 1/198. Dərun-Nədvətul-Aləmiyyə. 2014.
[8] Yəni: onu camaatın mənəvi lider kimi tanımamış, bu "liderə" tabe olmağa razı olmamışdı.
[9] Öncəki mənbə: 1/199.

Seyyid Qutub[10] ixvanların yazıçılarından hesab olunur. Həbs müddətində elementar İslami qaydalara fikir vermədən təkfirçilik fikirlərinə rəvac vermiş, radikallığı dəstəkləyən yazılar yazmışdı. Yazıçı, ədib olmağına baxmayaraq ixvanlar onu İslam alimi kimi qələmə vermiş, onun yazılarından təsirlənənlər təkfirçi, radikal fikirlərə düşmüşdülər. İxvanlar həmin dövrdə şəriət qaydalarının tətbiq olunduğu bəzi ölkələrin olduğunu bilə-bilə yenə bütün dünyanı - müsəlman diyarları da daxil olmaqla - küfr diyarı[11] adlandırmışdılar. Bu Seyyid Qutubun yazılarında da məşhur idi[12].

Qarşıda onun və digər İxvan cameəsinin yazarlarının inanc və fikirləri barədə bilgi veriləcəkdir.

Bu hadisələrdən sonra "İxvanul-Muslimin" təşkilatının üzvləri Misir prezidenti Camal Əbdünnasir 1970-ci ildə vəfat etməsinə kimi gizli fəaliyyət göstərdilər. Sonra Ənvər Sədət'in dövründə həbs olunan İxvanlar azad edildilər[13]. Bu hadisədən sonra 30-cu illərdən sonrakı

---

[10] Seyyid Qutub (1906-1966): Misirin Əsyut bölgəsində dünyaya gəlmişdir. O da İxvanul-Muslimin camaatının mənəvi liderlərindən biri hesab edilir. O, "Fi Zilalil-Quran" və "Məalim fit-Tariq" kitablarının müəllifidir. 1966-cı ildə Misir prezidenti Camal Əbdünnasir tərəfindən edam etdirilimişdir.

[11] Yəni: kafirlərin yaşadığı ölkə.

[12] Bu haqda onun sözləri qarşıda mənbəsi ilə bərabər veriləcəkdir.

[13] Movsuatul-Muyəssərah fil-Ədyən vəl-Məzəhib vəl-Əhzab əl-Muasırah. 1/200. Dərun-Nədvə Aləmiyyə. 2014.

uğursuz cəhdlərindən sonra ixvanlar Səudiyyə Ərəbistanına ayaq aça bildilər. Hələ Camal Əbdünnasirin dövründən onlar Misirdən Səudiyyə Ərəbistanına gəlməyə başlamışdılar. Onlar bu ölkəyə gəldikdə bu ölkədəki alimlərin İslam əqidəsi və şəriət elmləri üzrə necə yüksək dərəcədə olduqlarını görüb alimlərin elmindən faydalanmaq istəsələr də, mərkəzi Misirdən idarə olunan bu təşkilat sələfi cameədən uzaq olan etiqadi və şəri istiqamətləri ilə tam dəyişimə uğramadı. Dəyişiklik sadəcə sələfi cildinə girməklə başqa fikirlərə dəvət etməkdə özünü göstərdi. Böyük alimlər İxvan təbliğatçıların etiqadı və fiqhi mövzularda şəriətə müxalif bir çox fətvalarına daim öz etirazlarını bildirsələr də, ixvan təbliğatçılarının bu müxalif fətvalar tendensiyası bu gün də davam edir.

İxvanlar 1984-cü ildə "Vəfd" partiyası[14], 1997-ci ildə "İşçi partiyası" və "Liberal partiya" və s. kimi Misirin müxtəlif müxalif partiyalarına qoşulurlar[15]. Siyasi arenada öz məqsədlərinə çatmaq üçün liberallarla və bir çox zərərli dini və siyasi cərəyanlarla belə ittifaqa girməkdən, həmrəylik göstərməkdən çəkinmirlər.

---

[14] Bu əlaqələr 1941-ci ildən başlamışdı. Bax: KəşfulAlaqatul-Muribə beynəş-Şiati var-Rafidati va Hizbul-İxvanul-Muslimin. Xalid əl-Mısri. səh. 59. Dəru İlmis-Sələf.

[15] Ərəbcə məqalə: خطة الإخوانية للتحالف مع الليبرالية : https://elbashayer.com/582602/306316/

2005-ci ildə ABŞ-ın da dəstəyi ilə Misirdə "Müsəlman Qardaşlar" parlamentin 88 yerini qazandılar[16]. 2010-cu ilə kimi artıq dünyanın 72 ölkəsində təşkilatın camaatları mövcud idi.

Təşkilatın 2012-ci ilə kimi bir neçə lideri olmuşdur. 2012-ci ildə isə Muhəmməd Mursi[17] ixvanların təmsilçisi olaraq Misir prezidenti seçilir. Onun partiyası da demokratiyanı təmsil edirdi. Mürsi verdiyi bir çox dini vədləri prezident seçildikdən sonra yerinə yetirmir və bu səbəbdən bəzi ixvanların, həmçinin, digər dindarların qəzəbinə tuş gəlir. Xüsusən də müsahibələrindən birində: "Müsəlmanlarla xristianlar arasında heç bir əqidə fərqi yoxdur"[(18)] sözlərini deməsi dindarları özündən çıxarmış, "dinlərarası dialoq" barədə fikirləri ilə İslamı başqa dinlərlə eyniləşdirməsi onu nüfuzdan salmışdı. Təxminən bir il sonra hərbi çevriliş nəticəsində ixvanların hakimiyyətinə son qoyulur və hərbi çevriliş

---

[16] On ölkədə fəaliyyət göstərən təşkilat. Müsəlman Qardaşları təşkilatı. Araşdırma. (məqalə). Eastnews.org saytı. Keçid: http://m.eastnews.org/news/36141#.Y0EbTP5xoFM.whatsapp

[17] Muhəmməd Mursi İsa əl-Əyyat (1951-2019): O, Misir Ərəb Cümhuriyyətinin beşinci prezidenti olmuşdur. Misirin Şərqiyyə məntəqəsinin Advə kəndində dünyaya göz açmışdır. 1982-ci ildə Cənubi Kaliforniyada həndəsə üzrə doktorantura pilləsini bitirmişdi. 2012-2013-cü il arası Misirdə rəsmi prezident vəzifəsində çalışmış, bu müddət ərzində ixvanlara dəstək olmuşdur. Sonra Sisinin çevrilişi ilə hakimiyyətdən uzaqlaşdırılmış və həbs edilmişdir. 2019-cu ildə həbsdə ikən ürək tutmasından vəfat etmişdir.

[18] Videonun linki: https://youtu.be/gi_jNwX3aZU Daxil olma tarixi: 2020/05/30.

nəticəsində Mursi devrilir. İxvanların dünya ölkələrində bəzi dövlət çevrilişləri cəhdlərindən sonra bu təşkilat BƏƏ, İmərat, Misir, Səudiyyə Ərəbistanı, Kazaxıstan, Rusiya və s. ölkələrdə terror təşkilatı hesab edilir. Misirdə hökumət çevrilişində ixvanlara dəstək verib sonra onları ələ verən İngiltərə və Amerika isə bu gün də "İxvanul-Muslimin" terror təşkilatı kimi tanımaqdan boyun qaçırır ki, bu da maraqlı bir faktdır.

## İxvanların növləri haqqında qısa bilgi:

İxvanlar ümumilikdə 3 böyük qola bölünürlər:

- Bənnaçılar;
- Qütbçülər;
- Sürurilər;

**Bənnaçılar** İxvan camaatının təsisçisi olan Həsən əl-Bənnanın[19] fikir və ideyalarına sadiq olan ixvanlardır. Onlar daha çox siyasiləşməyə meyilli olanlardır. Onlar siyasi aləmə qatılır, şəriət baxımdan daha çox təhriflərə uğrayır, demokratik mühitdə özlərinə partiya qurur və bu yolla hakimiyyətə gəlməyə can atırlar. Digər ixvanlar bənnaçıların murciə[20] (həmçinin bəzi sufi) fikirlərində olduğunu iddia edirlər.

**Qütbçülər** Onlar Seyyid Qutubun[21] (1906-1966) tərəfdarları və onun cihadla əlaqəli, eyni zamanda təkfir fikirlərini dəstəkləyənlərdir. Qütbçülük 60-cı illərdə

---

[19] Tam adı: Həsən Əhməd Əbdür-Rəhman Muhəmməd əl-Bənna əs-Səati (1906-1949): Həsən əl-Bənna 1906-cı ildə Misirin Mahmudiyyə şəhərinin Buheyra məntəqəsində dünyaya göz açmışdır. O, "İxvanul-Muslimin" təşkilatının qurucusu və ilk lideridir (1928). 1949-cu ildə 12 fevral tarixində sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

[20] **Murciə**: İlk İslami firqələrdən birinin adıdır. Onlar əməlin imanla olan əlaqəsinə əhəmiyyət verməyən bir firqədir. İnsanın digər İslami əməlləri, öhdəlikləri yerinə yetirmədən də müsəlman olan biləcəyinə inanırlar.

[21] Tərcümeyi-halı bundan öncəki qeydlərdə keçdi.

ixvanlar arasında yaranmış mənəvi boşluq və gərginlik zamanı ortaya çıxmış, ixvan düşüncəsində Həsən əl-Bənnadan sonra yenilik edərək ixvanlığın təkfirçi simasını daha da artırmış, xüsusən də 1965-ci ildə baş verən həbslərdən sonra ixvanlar arasında yaranmış ixtilaflardan sonra ortaya çıxmış ixvani-təkfirçi fikirlərdir. Onlar İslam ölkələrini küfr diyarı hesab edir, daha çox radikallığa meyilli olurlar.

**Sürurilər:** Onlar əslən suriyalı olan Muhəmməd Sürur ibn Nayif Zeynəlabidinin[22] davamçılarıdır. Bu ixvanların digər ixvan camaatlarla ciddi daxili çəkişmələri olmuşdur. Xüsusən də bənnaçılarla ideoloji aspektdən xeyli fərqlənirlər. Bənnaçılar Həsən əl-Bənnanın fikirlərinə sadiqlik göstərsələr də, sürurilər etiqadi məsələlərdə Həsən əl-Bənnaya etibar etmir, onun etiqadi cəhətdən ensiklopedik bilgiyə sahib olmamasını vurğulayır, etiqadi məsələlərdə əsasən ibn Teymiyyə

---

22 Muhəmməd Surur ibn Zeynəlabidin (1938-2016): 1938-ci ildə Suriyanın Hovran bölgəsində dünyaya gəlmişdir. Az yaşlarından ixvan tərbiyəsi üzərində böyümüşdür. İbn Teymiyyənin fikirlərini etiqadda götürsə də bu fikirlərə Seyyid Qutubun inqilabçı fikirləri və hakimiyyət haqda fikirlərini əlavə edərək Sürurilіyi fikir məktəbi kimi formalaşdırmışdır. Sonradan Səudiyyə Ərəbistanının Qasim bölgəsinə gələrək özünə çoxlu tərəfdar da toplamağı bacarmışdı. Bir çox xeyriyyəçilik cəmiyyətləri quraraq intizamlı mühitlərdə təbliğatını aparmışdır. Elmi mühitdəki fəaliyyəti alimlər tərəfindən şiddətli etirazlarla qarşılandıqdan sonra Səudiyyədən sonra Küveytə, ondan sonra da ABŞ-a getməli olmuşdu. 2016-cı ildə Qətərdə vəfat etmişdir.

kimi böyük İslam aliminin sələfi görüşlərini dəstəkləməyi üstün görsələr də, İslam əqidəsində "reform etmək" istəyilə ona da müxalif olmuşlar. Onları digər ixvanlarla birləşdirən amil ictimai və siyasi mövzularda Seyyid Qutubun fikirlərinə böyük əhəmiyyət verməleridir. Beləcə onları sələfi kimi görünən ixvanlar və ya "sələfilik cildinə girmiş ixvanlar" adlandırsaq heç də yanılmarıq. Çünki, sələfilik bütünlüklə ixvanlığın gətirdiyi təhrifləri qəbul etmir. İctimai və siyasi fəallıqları isə digər ixvanlardan daha az olsa da mövcuddur.

## İxvan alimlərinin bəzi batil inancları:

**Übudiyyə (İbadət) tövhidində şirkə laqeyd yanaşmaq:** İxvanlar tək Allaha ibadət etmək etiqadını təbliğ etməyi öz dəvətlərində əsas qayə etmirlər. Qəbirpərəstlik, qəbirə ibadət hallarının onların cəmiyyətlərində olması kimi dini problem onları narahat etmir. Bunun ən bariz nümunəsi Misirdə yaranan hərəkatın nəinki qəbirpərəstlik ilə mübarizəsinin görülməməsi, əksinə, onlarla bərabər qəbirpərəstlik edən ixvanların da az olmamasıdır. Onlar, öz siyasi hədəflərinə çatmaq üçün hər əqidədən olan adamlarla ittifaqa girə bilirlər. Onları pirlərə ibadət edilməsi narahat etmir. Yalnız sələfi dəvətini eşidənlər və qismən qəbul

edənləri bundan istisna ola bilər. Həsən əl-Bənna hətta özü salehlərlə təvəssül etməyi əqidə məsələsindən hesab etmir və duanın keyfiyyətində olan fər'i xilaf hesab edirdi[23]. Onun özünün də şəriətə müxalif tərzdə etdiyi qəbir ziyarəti barədə sözləri və əqidəsi barədə qarşıda söhbət açılacaqdır.

**Üluhiyyə tövhidində şirkə laqeyd yanaşmaq;** Səid Həvva[24], Mustafa Sibəi[25] və Ömər Tilmisani[26]kimi İxvan təbliğatçıların feillərində də bu özünü əks etdirmişdir; Məsələn, Mustafa Sibəi özünün "ər-Rovda ən-Nədiyyə" əsərində keçən "Munəcət beynə yədeyil-Həbib əl-Əazam" adlı qəsidəsində etiqadi cəhətdən çox problemli sözlər işlətmişdi. Səid Həvva isə "Tərbiyətunə

---

[23] əl-Cəm'ul-Mubin li-Fətəva əl-Uləmə ər-Rabbəniyyin fit-Təhzir min hizbil-İxvanil-Muslimin, Xalid Osman əl-Mısri, səh 119.

[24] Səid Həvva (1935-1989): O, 1935-ci ildə Suriyanın Humat bölgəsində dünyaya gəlmişdir. Aktiv ixvan dəvətçilərindən olmuşdur. İyirmiyə yaxın kitabın müəllifidir. 1989-cu ildə İordaniyada vəfat etmişdir.

[25] Mustafa Sibəi (1915-1964): O, 1915-ci ildə Suriyanın Hums şəhərində dünyaya göz açmışdır. 1942-ci ildə "İxvanul-Muslimin" təşkilatının Suriya qolunun açılışını etmiş və bu qola rəhbərlik etmişdir. Bir çox kitabların müəllifidir. Ən məşhur kitabı "əs-Sunnətu və Məkənətuhə fit-Təşri əl-İsləmi" kitabıdır. 1964-cü ildə Suriyanın Hums şəhərində vəfat etmişdir.

[26] Ömər Tilmisani (1904-1986): O, 1904-cü ildə Misirin Qahirə şəhərinfə dünyaya gəlmişdir. İxvanul-Muslimin təşkilatının 3-cü lideri olmuşdur. 1986-cı ildə Qahirə şəhərində vəfat etmişdir.

ər-Ruhaniyyə" kitabında qarnına şiş batıran mövhumatçılara, onlarla xurafatlara, hətta, sehrbazlıqlara və üluhiyyət tövhidində şirkə yol verən "Rifai" ifratçı sufi təriqətinə təriflər yağdırmışdır[27].

**Hərəkatın qurucusunun özü sufi olmuşdur:** İxvanların ən məşhur təbliğatçılarından biri olan Səid Həvva deyir: "İxvanul-Muslimin hərəkatını sufi şəxs təsis edib, sufiliyin yaxşı tərəflərini götürüb"[28]. Bu da onların özlərindən olan bir etirafıdır ki, bunu inkar etmək mümkün deyil. Hətta, bu söz bir az yumşaq olsa da onun qatı sufi olmasını digər ixvan təbliğatçı Əbül-Həsən Əli ən-Nədvi[29] daha dəqiq vəsf etmiş, hətta onun Hasafiyyə Şəziliyyə təriqətindən olan sufi olduğunu, ölənə kimi bu təriqətin ayinlərini icra etdiyini etiraf etmişdir[30].

Həsən əl-Bənna özü də öz xatirələrində etiraf edib deyirdi: "Qəlbim şeyxə bağlı qaldı. Allah ona rəhmət etsin. Sonra Dəmənhur şəhərində müəllimlər

---

[27] Öncəki mənbə, səh: 120-122.

[28] Vaqafat məa Kitəbid-Duət Faqat, səh 40.

[29] Əbül-Həsən ən-Nədvi (1914-1999): O 1914-cü ildə hindistanın Rai Barelli bölgəsində dünyaya gəlmişdir. 1934-cü ildə "Darul-Ulum"da müəllim kimi fəaliyyətə başlamışdır. Təbliğ camaatının bəzi liderləri ilə də əlaqələr qurmuşdur. Müxtəlif illərdə İslam dəvəti üçün bəzi qəzet və jurnalların fəaliyyətində də iştirak etmişdir. Bəzi kitabların da müəlifidir; ən məşhuru uşaqlar üçün "Peyğəmbərlərin həyatı" kitabıdır. 1999-cu ildə Hindistanın Rai Barelli bölgəsində vəfat etmişdir.

[30] Bax: Əli ən-Nədvi, Təfsirus-Siyəsi lil-İsləm, səh 138-139.

mədrəsəsinə qoşuldum. Orda şeyxin (sufi təriqəti şeyxinin) qəbiri, piri və məscidinin o vaxtlar hələ tamamlanmamış təməli var idi, sonradan tamamlandı. Təxminən hər gün şeyxin qəbrini ziyarət edirdim. Dəmənhurdakı Hasafiyyə (təriqətindən olan) qardaşlarla dostluq etdim"[31].

Araşdırmaçılar onun dövrünün mötəbər alimlərindən elm öyrənməsi barədə heç bir bilgi olmadığını qeyd etmişlər. Sadəcə mədrəsə və Qahirə universitetində təhsili olmuşdur. Özü də alim olmadığını, şəri elmlərdə xüsusi təhsili olmadığını ona "təvəssül" (duada Allaha vasitə qoşmaq) barədə sual verən şəxsə cavabında demişdir: "Ey qardaşım! Mən alim deyiləm. Mən şəhər müəllimiyəm, bəzi ayə və hədisləri və dini hökmləri əzbərləmişəm, kitablar oxumuşam ki, könüllü dərs keçim. Əgər bu mövzudan kənara çıxsan, məni pis duruma salmış olacaqsan"[32].

**Hərəkatın etiqadi əsasları maturudilik və əşarilik üzərində qurulmuşdur:**

---

[31] Muzəkkirat Dəaviyyə vəd-Dəiyəh, səh 19. 5-ci nəşr, 1403 hicri.

[32] əl-Xutut əl-Ariyda li-Camaatil-İxvan əl-Muslimin, Numan əl-Vitr, səh 19; nəşr ili 2015. Həsənəl-Bənnanın öz kitabı: Muzəkkirat əd-Dəvətu vəd-Dəiyətu, səh, 85.

Səid Həvva deyir: "Əqidə məsələlərini ümmətdə iki məktəbdən öyrənməyi tövsiyə edirəm: Əbu-Həsən Əş'ari və Əbu Mənsur əl-Məturudi"[33].

Kuveytdəki ixvanlardan İsmayıl əş-Şatıy "Ulban" məscidində əqidə barədə danışarkən Quranda Allahın əl ləfzi keçən ayə barədə əşarilər kimi deyir ki: "Bilmirəm ki, Allahın əlinin olmasını necə qəbul edim"[34].

Ömər ət-Tilmisani də "İxvanul-Musliminin mənə öyrətdiyi bəzi şeylər" kitabının 17-ci səhifəsində bu ayəni gətirir: " Qiyamət günü yer bütünlüklə Onun ovcunda olacaq, göylər isə Onun Əli ilə bükülləcəkdir". (əz-Zumər, 67). Sonra deyir: "Ayədə keçən əl ilə göylərin bükülməsi qüdrətə dəlalət edir, hansı ki, o istədiyi bir şeyi istədiyi vaxtda necə istəyirsə elə də edir"[35].

Həsən əl-Bənna "Məcmuatur-Rasəil, səh 498-də" Allahın ism və sifətlərindən danışarkən təfvid[36] etməyi ən yaxşı yol görür[37].

---

[33] Bax: Səid Həvva, Özünün "Covlət fil-Fiqheyn əl-Kəbir val-Əkbər; əl-Covlətur-Ra'biah" kitabı. səh 66.

[34] Vaqafat məa kitəb lid-Duat Faqat, səh 22.

[35] Öncəki mənbə, səh 22.

[36] **Təfvid**: Allahın sifətləri haqqında dəlillərin zahirini (ləfzindən ağıla gələn mənanı) inkar etmək, sifəti - ümumi mənada - hər hansısa bir məcazi mənaya yozmaq və məna təyin edilmədən onu zahirdəki mənanın əvəzləyicisi etməkdir. Bu zaman mənanın təyin edilməsi haqda susulur, mənanın təyini Allahın öhdəsinə buraxılır. (Bax: ət-Təfvid fis-Sifət əl-İləhiyyə beynə Əqvalis-Sələf və Dəava əl-Xaləf. Muhamməd Xalifə ər-Rabah. səh. 40). Lakin bu rəy sələflərin görüşünə müxalifdir. Bu görüş ilk cəhmiyyələr tərəfindən təvil ortaya çıxdıqdan sonra meydana çıxmışdır. Bax: eyni mənbə: səh. 58.

[37] Kitəbul-Qutbiyyə, 55.

Seyyid Qutub isə Allahın Ərşə "isteva" etməyini başqa mənaya təhvil edərək (yozaraq) "kinayə olaraq sabit, Uca Hökmranlıq altına almaq" kimi başa düşürdü. Bu məsələdə də Əşari və Maturudilərin "Qaidətiəul-Kulliyyə"sini müdafiə edirdi[38]. Halbuki, onlar "bu qaydaya" əsasən Allahın Quranda xəbər verdiyi və səhih sünnədə peyğəmbərin (Sallallahu aleyhi və səlləm) bizə xəbər verdiyi Allahın sifətləri barədə xəbərlərin düzgün mənasını inkar etmiş, guya Allahı zaman və məkanla vəsf etməkdən qorxduqları üçün belə etmişdilər.

Onlar bundan əlavə bir çox bidətlərə də yol vermişlər: Bunlardan ən məşhuru mövlud keçirmələridir. Həsən əl-Bənna İskəndəriyyə şəhərinin Daniel məscidində belə bir mövlud məclisinə qatılmış və çıxış etmişdi[39]. Həmçinin o, Bədr döyüşünün baş vermə günündə Bədr xatirəsi münasibətilə təşkil olunmuş məclisdə də iştirak etmişdi[40].

Belə misalları çoxaltmaq olar ki, onlar heç etiqadda da sələfin yolunda olmayıblar.

---

[38] Ətraflı bax: Fi Zilalil-Quran, 3/1762-1763. Yunus surəsinin təfsiri.

[39] Bax ətraflı: (əl-Cəm'ul-Mubin li-Fətəva əl-Uləmə ər-Rabbəniyyin fit-Təhzir min hizbil-İxvanil-Muslimin, Xalid Osman əl-Mısri, səh 119.

[40] Məcəllətud-Dəvət. səh 4-5. 13-cü nömrə. 1937-ci il hicri tarixlə.

**Vəla vəl-Bəra (dost-düşmən) anlayışının zəifliyi, bəzilərində isə yoxluğa yaxın həddə olması.** Qarşıda İxvanların yalançı şüarlarından olan "dinlər birliyi" və s. haqqında danışılacaq. Onların bir Allahı "üç Allah" hesab edən, Allaha oğul nisbət edən xristianlarla, mələkləri Allahın qızları adlandıran, peyğəmbərləri öldürən, yer üzündə fəsad yayan, Fələstin xalqına zülm edən yəhudilər haqqında xoşməramlı sözlərini təqdim edəcəyik.

**İfrat sufiliyin "vəhdətil-vücud" etiqadı:**
Seyyid Qutub "İxlas" surəsinin təfsirində bu batil etiqadı təsdiqləyərək demişdir: "O varlıqda təklikdir. Bu varlıqda Onun həqiqətindən başqa bir şey yoxdur. Onun mövcudluğundan başqa həqiqi mövcudluq da yoxdur. Hər bir başqa sanılan varlıq öz varlığını yalnız bu həqiqi varlıqdan götürür. Hər bir varlıq öz həqiqətini də bu zatı-həqiqətdən götürür, bu isə (varlıqların) edilən fəaliyyətinin bir (tək) olması baxımındandır. Bu varlıq içində Ondan başqa bir fail (hərəkət edən, iş görən) yoxdur. Bu hislərdə olan əqidədir, həm də varlığın təfsirdir"[41].

İbn Useymin (Allah ona rəhmət etsin) onun bu sözləri haqqında demişdir: "Onun "İxlas" surəsinin təfsirini oxudum, o, Əhli Sünnə vəl-Camaatın əqidəsinə müxalif

[41] Fi Zilalil-Quran. Seyyid Qutub. 6/4002.

çox təhlükəli bir söz işlədir; Onun bu surəni təfsir etməsi "vəhdətil-vücud" etiqadında olmasına dəlalət edir"[42].

## "İxvanul-Muslimin" camaatının rafizi sevgisi.

Muhəmməd əl-Qəzali[43] (müasir İxvan alimi) "Zaləm minəl-Ğarb" kitabının 253-cü səhifəsində səhabələrə qarşı şiələrdə olan rafizi əqidəsini iqrar edərək deyir: "Misirdə çox eşitmişdim ki, Əbu Bəkr və Ömərə lənət oxuyan farsların küfr etdiyini deyirdilər. Əgər mən (Əbu Bəkr və Öməri söyənlər barədə) onların nələr dediklərini dərindən araşdırsaydım, məni düşmən elan edərdilər"[44]. Sonra isə o rafizilər və onların alimləri ilə mehriban dostluq əlaqələrinin olduğunu etiraf edərək deyir: "Mən (şiə alimi) şeyx Muhəmməd Təqi əl-Qummi ilə dostluq etmişəm, necə ki, (şiə alimi) şeyx Muhəmməd Cavad Muğniyyə və başqa böyük şiə alimləri ilə də dostluqlarım olmuşdur"[45]. Məşhur İxvan alimi Mövdudi[46] deyirdi:

---

[42] Məcəllətud-Dəvət. nömrə: 1591; tarix: 09.01.1418 hicri.

[43] Muhəmməd əl-Qəzali (1917-1996): Misirli ixvan yazarlardan olmuşdur. Ədəbi üslubda yazmağa üstünlük vermişdir. Bir çox fikirləri dövrün araşdırmaçı və alimləri tərəfindən tənqid edilmişdir.

[44] Vaqafat məa kitəb lid-Duət, səh 71.

[45] Kitəb əl-Qutbiyyə, səh 57.

[46] Əbül-Əla Mövdudi (1903-1979): Hindistanlı yazarlardan biridir. "Tərcüman əl-Quran" adlı jurnalı nəşr etdirmişdir və jurnalist fəaliyyəti olmuşdur. Siyasət və fəlsəfə ilə də məşğul

"Xomeyni inqilabı İslami inqilabdır, bunu edənlər də İslami camaatdırlar….. Bütün müsəlmanlar və İslami hərəkatlar gərək bu inqilabı bütün gücləri ilə dəstəkləsinlər və bütün sahələrdə gərək onlarla bərabər olsunlar"[47].

Çox uzağa getməyək; elə bu günümüzdə Yəmənin cənubunda vaxtilə 65% olan sünnilərə qarşı qiyam edən rafiziləşmiş Zeydi şiələrinin tərəfində dayanan, onlara hər cür dəstək verənlər də ixvanlar idi. Bu gün də Yəmənin sünni camaatına dəstək olmaq yerinə orada qırılan sünnilərin dərdini çəkmək yerinə şiələr üçün ağlayırlar.

Seyyid Qutubun rafizilərlə əlaqələri və yaxınlığı barədə geniş araşdırmalardan bu iki kitabı qeyd etmək olar:
1 - Kəşful-Aləqatul-Muriybə beynəş-Şiəti vər-Rafidati və hizb əl-İxvan əl-Muslimin. Xalid ibn Osman əl-Mısri. 2008.
2 - Seyyid Qutub vər-Rafidatu həqaiq və vəsaiq, Muhəmməd ibn Avad əl-Mısri. 2014..

---

olmuşdur. İctimai fikirləri, xüsusən də təkfir fikirləri bəzi İslami dairələrdə öz mənfi təsirini əks etdirmişdir.

[47] əş-Şaqiqan, səhifə 57.

## "İxvanul-Muslimin" camaatının təkfir[48] fikirləri:

Terrorçu qruplaşmalarla əlbir olmaq, onları hər cür yollarla dəstəkləmək, yanlarında olmaq ixvanların məlum əməllərindəndir. Təşkilatın qurucusu Həsən əl-Bənna özü belə vaxtilə yaşadığı müsəlman ölkəsini müsəlman ölkəsi hesab etmir, ölkə rəhbəri və müsəlmanlar ola-ola insanları özünə və hərəkatına beyət etdirirdi. Bu isə dövlət içində dövlət demək idi. Həsən əl-Bənna öz təşkilatının xüsusi üzvü olan bir şəxsi kafir elan etmişdi. O, gizli xüsusi (İxvan) təşkilatının sənədlərini daşıyarkən maşında məhkəmə binasını partlatmağa cəhd edərək yaxalanmış və təşkilatın sənədlərini ələ vermişdi[49]. Tələbəsi Mahmud Əbdül-Həlimdən də Həsən əl-Bənnanın həmin şəxsi kafir hesab etməsi nəql olunmuşdur[50].

Həsən əl-Bənnanın həmin şəxsi xəyanətkar, naxələf və ya fasiq (günahkar) adlandıra biləcəyi halda onu "kafir" adlandırması bizə bu təşkilatın kökünü quranların hansı

---

[48] **Təkfir**: Şəri bir termin olub bir insanı kafir adlandırmaq, kafir olduğunu iddia etmək, müsəlmançılıqdan kənar olduğuna hökm vermək anlamında işlənir. İslam alimləri müsəlmanların bir-birini asanlıqla kafir adlandırmamaları üçün şəriət dəlillərinə, qaynaqlarına əsaslanan mühüm şərtlər, qaydalar və üzrlər qoymuş, bu haqda kitablar yazmışlar.

[49] əl-Xututu əl-Ariydatu li-Camaatil-İxvan əl-Muslimin, səh 293.

[50] əl-İxvan əhdəsun sanəat-Tərix, 2/75.

fikirlərdə olduğu haqda işarələr verir. Onların "birlik, bərabərlik" şüarları səsləndirməyə aldanmaq olmaz, çünki bu şüarları yəhudilər və s. də səsləndirir.

İxvanlar haqqında ən geniş araşdırma etmiş şəxslərdən biri kitabında "Həsən əl-Bənnanın kral Faruqu[51] da kafir adlandırması" haqda iki yerdə (Tuqyə və tələvvun fəslində və qeyd olunan səhifədə) danışır[52].

"İxvan camaatının ikinci mənəvi lideri Həsən əl-Hudeybi (1891-1973) Misir ordusunun 50-ci illərdəki zabitlərini kafir hesab edir və Seyyid Qutubun xətalarla və təkfirçilik fikirlərilə dolu "Məalim fit-Tariq" kitabını çap etməyi əmr edirdi"[53].

Göründüyü kimi ixvan camaatının həm birinci, həm ikinci liderində təkfir (kafir adlandırma) halları mövcuddur.

Misir prezidenti, əvvəllər ixvanlardan biri olan Camal Əbdünnasirin 1965-ci ildəki həbsxanalarındakı radikal təkfirçi qrupların yaranmasına səbəb də Seyyid Qutubun kitabları olmuşdur. Necə ki, buna İxvan yazıçı və tarixçiləri şahidlik edirlər.

---

[51] Kral Faruq (1920-1965): Misirin və Sudanın kralı olmuş, bir çox xeyirxah işlərlə öz xalqının xatirəsində qalmış müsəlman rəhbər.
[52] Bax: əl-Xututu əl-Ariydatu li-Camaatil-İxvan əl-Muslimin, səh 293.
[53] Öncəki mənbə. səh 278.

Fərid Əbdül-Xaliq demişdir: "Ötən yazılarımızda bəzi ixvan gənclərin arasında təkfirçilik (kafir adlandırma) fikirlərinin yayılması 50-ci illərin axırları, 60-cı illərin əvvəllərində "Qanatir"[54] həbsxanasında meydana gəlmişdir. Onlar Seyyid Qutubun fikirləri və yazılarından təsirlənmiş, (müsəlman) cəmiyyətlərin İslamdan əvvəlki Məkkə müşriklərin cəmiyyəti (cahiliyyə dövrü) ilə eyniləşdirmişdilər"[55].

Seyyid Qutubun özü də özündən əvvəlki İxvan liderlərindən təsirlənmiş və ixvanlığı qəbul etdikdən sonra bu fikirlərə düşmüşdü.

Həsən əl-Bənna İslam şəriətindən cahil olduğu üçün onun qoyduğu yolla gedən Seyyid Qutub (1906-1966) müsəlmanlar arasında təkfirçilik fikirlərinin yayılmasına səbəb olaraq bütün müsəlman ölkələrini İslamdan əvvəlki cahiliyyə dönəminə nisbət etmiş, şirk və küfr diyarı adlandırmışdır. Onun kitablarını oxuyanlar da müsəlman ölkələri və dünya müsəlmanları haqqında eyni fikirlərə düşürlər. Seyyid Qutub demişdir: "Yer üzünün şərqindən qərbinə kimi minarələrdə “Lə iləhə illəllah" sözünü təkrarlayan bəşəriyyət (insanlıq) bütünlüklə bunu mənasız və reallıqdan uzaq şəkildə deyir. Onlar Qiyamət günü daha böyük günah və daha

---

[54] "Qanatir" həbsxanası: Misirdə yerləşən həbsxanalardan birinin adı.
[55] Fi Mizanil-Haqq, səh 115.

böyük əzab sahibi olacaqlar. Çünki, onlar mürtəd olub (dindən çıxıb) qullara ibadət edirlər"[56].

Seyyid Qutub öz dövründə şəriət qaydalarının tətbiq olunduğu ölkənin varlığını bilə-bilə bu sözləri deyir, yer üzündəki bütün müsəlmanları dindən çıxmaqda ittiham edirdi. Minarələrdə verilən əzanların mənasının bilinmədən verildiyi üçün bu insanların dindən çıxdığını açıq şəkildə ارتدوا sözüylə[57], ifadə edirdi.

Seyyid Qutub özü ədib (yazar) olduğu halda Quranı təfsir etmək üçün kifayət edən elmi, şəri biliyi, alimlərin qoyduğu şərtləri, bilməsi gərəkən elmləri özündə cəm etməməsinə baxmayaraq, boş vaxtlarını Qur'anı təfsir etməyə səy göstərmiş və böyük etiqadi xətalara yol vermişdir. Bu xətaların bəzisindən yuxarıda danışdıq.

Seyyid Qutub müsəlman hakimləri təkfir etməklə[58] qalmamış, bundan da betərini edərək müsəlman cəmiyyətlərini də kafir cəmiyyətləri olmaqda ittiham etmişdi. Hətta, minarələrdə əzan oxuyan carçıları (müəzzinləri) də kafir hesab etmişdi. Hətta, dövründəki məscidlərdən də uzaq durmağa çağırırdı. Necə ki, bu gün radikal təkfirçilər müsəlman imamın arxasında məscidlərdə namaz qılmır, o imamları kafir və tağutun[59]

[56] Fi Zilalil-Quran. Seyyid Qutub. 2/1057.

[57] Mürtəd olmuşlar, yəni dindən çıxmış, kafir olmuşlar.

[58] Kafir adlandırmaqla.

[59] **Tağut**: Şəri bir termin olub Qurani-Kərimdə də öz əksini tapmışdır (əl-Bəqərə. 256). İmam ibn Cərir ət-Təbəri demişdir:

işçiləri hesab edirlər. . Seyyid Qutub demişdir: "Cahiliyyə ibadətgahlarından uzaq durmaq, müsəlman qrupla evləri məscid kimi sabit etməklə cahiliyyə cəmiyyətindən uzaq durmaq lazımdır"[60].

Bu misalları səhifələrinə kimi sözbəsöz qeyd edib uzada bilərik. Məsələn; o, müsəlmanlardan kafir saydıqlarının kəsdiyi əti xristian və yəhudilərin kəsdiyi ətlə eyniləşdirir. Seyyid Qutub cümə namazları qılmırdı və belə hesab edirdi ki, "xilafət olmayınca cümə namazı qılmaq doğru deyil"[61]. O, bu fikrində Mehdi gəlincəyə qədər cümə namazlarını tərk etməyin gərəkdiyinə inanan rafizilərlə təxminən eyni məxrəcə gəlmiş olur.

Hətta, İxvan alimi Yusuf əl-Qardavi də Seyyid Qutubun təkfir fikirli olduğunu etiraf edərək demişdir:

"Bu dövrdə Seyyid Qutubun kitabları ortaya çıxdı, hansı ki, onun sonuncu düşüncələrini ehtiva edirdi. O fikirlər ki, müsəlman cəmiyyətləri kafir adlandırırdı. Onun bu fikirləri daha aydın şəkildə "Fi Zilalil-Quran"-ın ikinci nəşrində və "Məalim fit-Tariq" kitabında (çoxusu Zilaldan götürülüb) və "İsləm və Muşkilət əl-Hadara" kitabında var idi. Necə ki, bu fikirlər rəhmət və məğfirətlə anılan

---

"Allahdan başqa ibadət və itaət edilən - nə olursa olsun - hər bir şey tağutdur". (İbn Cəririn Qur'an təfsiri. 3/19).

[60] Fi Zilalil-Qurən. Seyyid Qutub. 3/1816.

[61] Ətraflı bax: əl-Xutut əl-Ariyda li-Camaatil-İxvan əl-Muslimin. səh 278.

(ixvan) dəvətçi şeyx Səid Həvvanın da kitablarında eyni üslubda ortaya çıxmışdır"[62].

Bu etirafların öz camaatlarından olan şəxslər tərəfindən edilməsi daha ədalətli olardı deyə yuxarıdakı bu məıumatı verdik. Mənbələrin hamısı yerləşdirilmişdir. İstəyənlər qeyd edilən mənbəyə müraciət edib oxuya və dəqiqləşdirə bilərlər.

Eymən əz-Zəvahiri[63] Seyyid Qutubun kitablarındakı təkfir fikirlərini yüksək qiymətləndirmiş və ona təriflər yağdırmışdır[64].

İxvan Fəthi Yakan[65] öz cəmiyyətini və bütün dünyanı küfrdə ittiham edirdi[66].
Qardavi də "Əzhər" universitetinin şeyxlərinə qarşı zahiri küfr olan sözlər işlədirdi. Muhəmməd Ğəzali (müasir) ümumiyyətlə İslam dövlətinin olmadığını deyirdi[67].

---

62 Əvləviyyət əl-Haraka əl-İsləmiyyə, Yusuf Qardavi. səh 110.
63 Eymən Muhəmməd Rabi əz-Zəvahiri (1951-2022) : "Əl-Qaidə" terror təşkilatının qurucularından biri, Ben Ladenin vəfatından sonra təşkilata liderlik etmiş şəxs.
64 Bax: Ətraflı bax: əl-Xutut əl-Ariyda li-Camaatil-İxvan əl-Muslimin, səh 278.
65 Fəthi Yakan (1933-2009): O, Livanın Tripoli şəhərində türk əsilli bir ailədə dünyaya göz açmışdır. Livandakı İslam hərəkatının ilklərindən olmuşdur. İctimai və siyasi fəaliyyətləri olmuşdur. İslami araşdırmalar və ərəb dili üzrə doktorantura pilləsinə nail olmuşdur. 2009-cu ildə Beyrut şəhərində beyin fəlci keçirərək vəfat etmişdir.
66 Öncəki mənbə, səh 278.
67 Öncəki mənbə, səh 278.

Üsamə Ben Ladenin şeyxi Abdullah Azzam (1941-1989) məşhur fələstinli ixvan lider olmuşdur. Onun təkfirdə hansı həddə çatmağı barədə qısa bilgi verək; Təsəvvür edin dünyanın bir nömrəli terrorçusunun təkfirçi zehniyyətinin formalaşması bu şəxsin adıyla bağlıdır. Bunu Ben Ladenin anası Alyə Ğanim oğlunun normal haldan necə təkfirçi birinə çevrildiyini izah edərkən oğlunun dəyişməsinə səbəb olan həmin şəxsin fələstinli (ixvan) Abdullah Azzam olduğunu demişdir[68]. Abdullah Azzam zamanında təkfirçi camaatların mənəvi lideri sayılırdı. Hətta, məşhur çıxışlarından birində "İslam özü elə terrordur, hər bir müsəlman da terrorçu olmalıdır"[69] deyən Abdullah Azzam Ben Ladenin ən yaxın silahdaşlarından biri idi. O, Seyyid Qutubun fikirlərindən təsirlənmişdi və Qütbçü ixvanlığı təbliğ edən ən əsas adamlardan biri idi.

Misir həbsxanalarında yaranmış ən təhlükəli "Təkfir və hicrət" camaatının lideri Şükrü Mustafa[70] (1942-1978) da

---

[68] Ben Ladenin anasının etirafı: https://youtu.be/AhU_Ch97pU4 daxil olma tarixi. 2022.10.17

[69] Video link: https://youtu.be/oqfVI4VNt8Y daxil olma tarixi: 2020.06.01.

[70] (Əbu Səid) Şükrü Əhməd Mustafa (1942-1978): O, 1942-ci ildə Misirin Əsyut məntəqəsinin Həvatikə kəndində dünyaya gəlmişdir. 1965-ci ildə həbs olunan ixvanlarlardandır. Dini universitet və alimlərin yanında təhsili olmamışdır. Əsil universitet ixtisası Misirdə aldığı "Əkinçilik" ixtisası idi. Camaatın birinci lideri olan Əli İsmayıl radikal təkfirçilik fikirlərindən döndükdən sonra gənc yaşlarında olan Şükrü

ixvan camaatından idi. Onlar özlərindən başqa heç kimi müsəlman hesab etmirdilər. Şükrü Mustafa 1965-ci ildə Misirdə Əbdünnasir tərəfindən həbs olunan ixvanlarla bərabər eyni həbsxanalarda olur. Beləcə ixvan camaatı içindən çıxan, dünyanın ən təhlükəli təkfir camaatı peyda olur[71]. Bu camaat həbsxana daxilində yaranır. Şükrü Mustafa müsəlman cəmiyyətləri kafir adlandırmada eynilə Seyyid Qutubun fikirlərindən təsirlənmişdi. Bir müddət sonra bu camaata "Camaatu təvaqquf və təbyin" deyilir. Çünki, camaatın əsaslarından biri idi ki, insanlar ya "xalis müsəlman (ancaq öz camaatları), ya xalis kafir, ya da hökmündə dayanılan və soruşdurulduqdan, izah alındıqdan sonra müsəlmanlığı təsdiqlənən" kateqoriyalarına bölünürlər.

Beləcə, ixvan camaatının təkfirlə nə qədər sıx və iç-içə olduğu, təkfirçiliyin dünyada yayılmasında nə qədər rol oynadıqlarına qısa şəkildə toxunulmuş oldu.

---

Mustafa "Təkfir və Hicrət" camaatına liderlik etməyə başlayır. 1978-ci ilin 30 mart tarixində Misir hökuməti tərəfindən islah üçün verilmiş bir neçə fürsəti dəyərləndirmədikdən sonra o edam edilir. (Bax: Mənəhicud-Dəvət. 322).

[71] Mənəhicud-Dəvət vət-Təyyarat əd-Diniyyə vəl-Fikriyyə. Prof. Əbdür-Rəhim Muğazzəvi. səh. 321.

## Peyğəmbərlərə qarşı ədəbsiz ifadələr:

İxvan alimi Mövdudi Nuh peyğəmbərə (əleyhissalam) cahiliyyə hislərinin qalib gəldiyini iddia edərək deyir: "Nuh düşmənləri qarşısında məğlub durumda qalır. Ona cahiliyyə hisləri qalib gəlir"[72].

İxvan alimi Yusuf Qardavi peyğəmbərin ﷺ və Raşidi xəlifələrin dövrünü "diktatura" adlandırmışdır[73].

Yusuf Qardavi bunu Peyğəmbərin ﷺ: "Özlərinə qadını başçı edən bir qövm nicat tapmaz"[74] - hədisini izah edərkən deyir: "Bu, peyğəmbərin ﷺ zamanına aiddir. Hansı ki, o vaxt diktatura hökmü ilə gedilirdi. İndi isə elə deyil"[75].
Halbuki, peyğəmbərin ﷺ sözü hər zamana aiddir. Bu hədisi gələcək zamana aid olmaqdan çıxaran xüsusi bir dəlil yoxdur.

Seyyid Qutub Musa peyğəmbərə (əleyhissalam) yaraşmayan, tənə etmək hesab olunacaq şəkildə onu vəsf edir: "O, özündən tez çıxan əsəbi xarakterli liderə bənzəyir". Həmçinin, deyir: "Burada Musanın qövmünə təəssübkeşliyi, eləcə də əsəbi və emosional olması görünür". Yenə eyni səhifələrdə: "Gəlin indi görək zaman

---

[72] əl-Qutbiyyə. 58.
[73] Öncəki mənbə. səh. 9.
[74] Səhih əl-Buxari, 4163.
[75] Qutbiyyə. 9.

onun əsəblərinə necə təsir edir?" Yenə bəzi hadisələri gətirib deyir: "Yenə görürük ki, özündən çıxan əsəbi adam geri qayıtmışdır". Yenə bir ayə gətirir, onu da belə təfsir edir: "Beləcə açıq-aşkar şiddətli qəzəblənir, əsəbindən depressiyaya düşür"[76]. O, Musanın iki nəfər dalaşan şəxsi ayırmaq istəyərkən birinin ölümünə səbəb olmasını bu cür izah edir.

Bütün bunları oxuyan adam əgər müsəlman olmasa, Musa peyğəmbər və onun psixoloji durumu haqqında pis fikirlərə düşə bilər. Şəriət elmlərini bilməyən bir ədəbiyyatçı Quranı təfsir etməyə girişəndə belə də olmalı, özündən qəribə cümlələr qurmalı idi. Kaş ki, bu ədəbiyyatçı bu ayələri təfsir etməyə cürət etməzdi. O, mütəxəssis təfsirçilərin peyğəmbərlər və s. mövzularda deməyə cürət etmədiyi sözləri dilinə gətirmişdir.

Yusuf Qardavi müsəlmanın kafir əvəzində öldürülməsinin icazəli olduğunu deyir. Buxaridə keçən: "Müsəlman (kafiri öldürərsə) kafirə görə (cəza olaraq) müsəlman öldürülməz"[77] - hədisini qəbul etmir, "bunun da dövrümüzə uyğun olmadığını" deyir[78].

Yusuf Qardavinin bu üslubla peyğəmbərin ﷺ hədislərini inkar etməsinə misallar çoxdur.

---

[76] Bax, ətraflı: Tasvirul-Fənni fil-Quran, Seyyid Qutub, səh: 200-204.
[77] Səhihul-Buxari, 4163.
[78] Bax, əl-Qardavi fil-Mizan, 9.

İxvan alimi Mövdudi[79] Yusif peyğəmbərin (əleyhissalam) idarəçiliyini və dövrünü İtaliya hakimi Mussoliniyə çox bənzədiyini deyir. Hətta, burada da Mussolininin iqtisadiyyat naziri olduqdan sonra diktator olmaq istədiyini deyir və bunu Yusuf peyğəmbərin hökmünə bənzədir[80].

Peyğəmbər hara, diktator hara? Peyğəmbərin ədaləti var, diktatura isə heç də ədalət demək deyil. Zalım, kafir bir başçı ilə bir peyğəmbər necə eyni tutula, necə müqayisə oluna bilər?! Sizə elə gəlmirmi ki, bu sadaladıqlarımız bu şəxslərin peyğəmbərlərə qarşı ədəblərinin az olmasından irəli gəlir?!

İxvan alimi Həsən ət-Turabi[81] "milçək" hədisində peyğəmbərin əmrini qəbul etmir və deyir: "Bu tibbi məsələdir, bunda kafirin sözünü götürürəm, peyğəmbərin sözünü götürmürəm və bunda bir problem də görmürəm[82]. Halbuki, həmin hədisin necə böyük bir məna ifadə etməsini də elə kafirlər sübut etmişdilər. Milçəyin bir qanadında zəhər, digərində isə panzəhər

---

[79] Tərcümeyi-halı daha öncə verildi.
[80] əş-Şaqiqan. səh. 21.
[81] Həsən Abdullah ət-Turabi (1932-2016): Sudanlı dini və siyasi lider olmuşdur. 1932-ci ildə Sudanın şərqindəki Kəslə bölgəsində dünyaya gəlmişdir. "Dini yeniləmək" kimi kimiləri üçün parlaq, həqiqətdə isə dinin əsaslarından kənar fikirləri yazdığı kitabların bir çoxunun mahiyyətini təşkil edirdi. 2016-cı ilin martın beşi tarixində Sudanın Xartum şəhərindəki xəstəxanalardan birində vəfat etmişdir.
[82] Hizbul-İxvanul Muslimin fi mizanil-İsləm, səh 46.

olması həqiqəti müasir elm tərəfindən sübut edilmişdir. Lakin, kəlam mədrəsəsindən təsirlənmiş bu şəxslər milçəyin bir qanadının suya düşdüyündə digər qanadının da suya salınmasını əmr edən səhih hədisi[83] bax belə cahilcəsinə inkar etməyə cəhd etmişlər.

## Peyğəmbərin möcüzələrinin və hədislərin inkarı

İslam dini peyğəmbərin ﷺ möcüzələrini təsdiqləmiş, ixvan liderləri isə bu möcüzələri inkar etmişlər:
Seyyid Qutub Qurandan başqa peyğəmbərin ﷺ digər möcüzələrinə dırnaqarası baxmış, bu möcüzələr vasitəsilə İslamı yaymağın İslamın qayəsi olmadığını, əsas olan insanı sadəcə anlayacağı xitab yoluyla dəvət etmək olduğunu iddia etmişdir ki, bunun da yalnız Quran olduğunu bildirmişdir. Hətta, İslamdan əvvəlki peyğəmbərlərin möcüzələrini - Musanın doqquz möcüzəsi, beşikdəki uşaqla danışması, ölülərin dirildilməsi, İsa peyğəmbərin digər möcüzələrini də misal çəkərək demişdir: "İslam heç hansı bir formada zor gücü və məcburi təsir yollarını seçməmişdir". O, hədislərdə gələn peyğəmbər möcüzələrini ya cahilliyindən, ya da naməlum səbəbdən inkar etmişdir[84].

---

[83] Səhih əl-Buxari, 5782.
[84] Ətraflı bax: Ədva əl-İslamiyyə alə aqidəti Seyyid Qutub. səh 181-182.

Həsən əl-Bənna isə Mehdinin gəlişi barədə hədisləri inkar etmiş, bu barədə olan mütəvatir[85] hədisləri ya zəif, ya da uydurma adlandırmış, ümumiyyətlə, Mehdinin gələcəyinə inanmamışdır.

Həsən əl-Bənna deyirdi: "Müvəffəq olmağımızdandır ki səhih sünnədə Mehdinin gələcəyi barədə iddianı isbat edən bir şey görməmişik. Bu barədə olan hədislər zəiflik və uydurmalıq arasında dövr edir"[86].

Ötən əsrin böyük alimlərindən, hədis elmi üzrə mütəxəssislərdən olan şeyx Albani isə onun əksinə olaraq bu hədislərin mütəvatir[87] yolla gəldiyini qeyd etmişdir[88].

Seyyid Qutub isə Yəcuc Məcucun[89] çoxdan çıxdığını, onların tatar və Monqollar olduğunu deyərkən unudurdu

---

[85] **Mütəvatir hədis:** bir çox səhabələrin ittifaqla rəvayət etdiyi hədislərdir. İstilahi cəhətdən ən aydın təriflərindən biri belədir: "Mütəvatir hədis: Özləri kimi (etibarlı) insanların yalan üzərində razılığa gəlmələri və ittifaq etmələri mümkün olmayan bir toplum (çoxsaylı insan və ya səhabə) tərəfindən rəvayət edilən hədislərdir. Xəbərlərinin istinadı hisdir". Yəni, eşitmək və ya görmək yoluyladır. (Teysiru Mustalah əl-Hədis. Dr. Mahmud ət-Tahhan. səh. 21-22. Misir nəşri. 1415 hicri).

[86] Hədisus-Suləsə. Həsən əl-Bənna. səh. 108.

[87] Az öncə haşiyədə mütəvatir hədisin mənası izah edildi.

[88] Silsilətus-Sahihə, 5/372.

[89] Qurani-Kərimin "əl-Kəhf" surəsinin 94-cü ayəsində, "əl-Ənbiya" surəsinin 96-cı ayəsində və bir çox mötəbər hədislərdə haqqında xəbər verilən, Qiyamət günündən öncə yer üzündə yayılaraq fəsad törədəcəyi gözlənilən məxluqlar.

ki, bu, Qiyamətin böyük əlamətlərindəndir. İmam Qurtubi (rahimahullah) tatar və monqolların yürüşü zamanında yaşasa da öz təfsirinidə Yəcuc və Məcucun onlar olduğunu deməmişdi[90].

Ən dəhşətli iddianı isə ixvan Əbül-Əla Mövdudi[91] etmişdir. O, dəccal[92] haqqında peyğəmbəri ittiham etmiş, dəccalın çıxmadığını və çıxmayacağını iddia etmişdir. Dəccalın sadəcə peyğəmbərin bir zənni olduğunu demişdir. O, Səhih əl-Buxari, Səhihi Müslim və başqa mötəbər mənbələrdə təsdiqlənən hədislər barədə görün nə deyir?! Buyurun, sözbəsöz oxuyun: "Peyğəmbər elə zənn edirdi ki, dəccal onun zamanında və ya ona yaxın bir zamanda çıxacaq. Lakin, artıq bunun üzərindən 1350 il kimi uzun illər keçib və dəccal hələ də çıxmayıb. Beləcə sübut olur ki, peyğəmbərin bu zənni doğru olmayıb!"[93]

Elə həmin mənbədə səh 55-də peyğəmbəri ﷺ ittiham edərək deyir:" Sübut olunub ki, peyğəmbərdən ﷺ dəccal haqqında rəvayət olunan bütün hədislər onun fikri və qiyası idi. Onun özü də buna şəkk edirdi"[94].

---

[90] Bax: Təfsirul-Qurtubi, 11/58.
[91] Tərcümeyi-halı daha öncə keçdi. "İxvanul-Muslimin" camaatının rafizi sevgisi - mövzusuna bax.
[92] Dəccal: Peyğəmbərin çoxsaylı mötəbər hədislərində adı keçmiş, dünyanın sonundan öncə yer üzündə böyük bir fitnəyə səbəb olacaq təkgöz, fövqəladi əməllər edərək çoxlu insanları azdıraraq Allahlıq iddiasında olacaq qəribə məxluq.
[93] Rasəil və Məsəil, səh 57; 1351 hicri ilin nəşri.
[94] əl-Əcvibətul-Mufidə an əs'ilətil-Mənəhic əl-Cədidə, səh 92.

Görəsən ixvanlar bu dəlillərə nə deyəcəklər? Şəri elmlərdən cahil olan bu adamların peyğəmbərlər və peyğəmbərimiz barədə çoxsaylı cahilanə, ədəbsiz sözlərinə nə üzür gətirəcəklər? Onları yenə alim adlandıracaqlarmı?

## İxvanlarda səhabələrə dil uzatmaq məsələsi:

Seyyid Qutub müsəlmanların üçüncü xəlifəsi Osman ibn Əffana, həmçinin, səhabələrdən Müaviyəyə və Amr ibn il-Asa tənə edir, dil uzadır[95]. Bəzi səhabələrə tənə etmək ixvanların məşhur dəvətçilərində müşahidə olunan haldır ki, bu da onların əqidə elmində bir çox boşluqlara yol verdiklərini göstərir.

Bəzi alimlər Seyyid Qutubu cahil gördüklərindən onu elə "cahil" adlandırmağı üstün görmüşlər. Çünki, o yazdığı kitablarda çox ciddi elmi, etiqadi xətalara yol vermişdir. O, Müaviyə və Amr ibnil-Ası (Allah hər ikisindən razı olsun) yalan, hiylə, fırıldaq, nifaq və rüşvətdə ittiham edir [96]. Hələ onlar barəsində xeyli nalayiq sözlər də

---

[95] Əhli Sünnənin icmasıyla ayət və hədislərdə fəziləti təkidlə vurğulanmış səhabələr haqqında pis danışmaq icazəli deyil.
[96] Seyyid Qutubun "Kutub və Şəxsiyyət" kitabı. səh. 242-243.

söyləmişdir ki bu qeyd olunan bilgi tənə olaraq kifayət edir.

Həmçinin o, bununla kifayətlənməyərək öz kitablarında bir çox yerdə xəlifə Osmana (Allah ondan razı olsun) da tənə etmiş, onun yararsız bir şəxsiyyət, xilafətə layiq olmayan, Əlidən (Allah ondan razı olsun) fəzilətcə aşağı olduğunu, Əlinin xilafətə ondan daha haqlı olduğunu iddia edərək Əhli Sünnə alimlərinin raşidi xəlifələrin fəzilətcə ardıcıl olmaları barədə icmasına müxalif olmaqla yanaşı Osmanı aşağılayan bir çox ifadələr işlətmiş, Əlinin Osmanın yerinə xəlifə olmamasını rafizilər kimi "böyük imtahan" adlandırmışdır[97].

Gəlin görək Seyyid Qutub xəlifə Osman ibn Əffanın (Allah ondan razı olsun) xilafəti haqqında danışarkən nə deyir: "Biz Əlinin xilafətinin Əbu Bəkrin və Ömərin xilafətinə təbii uzantı olduğuna[98] meyl edirik. Osmanın xilafəti isə bu iki dövr arasında bir boşluq idi[99]"[100].

Hələ eyni kitabda Osmanın xilafəti və beytül-malı dədə malı kimi istifadə etdiyinə eyham vurur, onun

---

[97] Bax: "Əl-Adələtul-İctiməiyyə". səh. 191. 5-ci nəşr; səh 162. 12-ci nəşr.
[98] yəni, Osmanın xilafətini faydasız gördüyü üçün belə deyir.
[99] Fikir versəniz, bu xilafəti faydasız, "boşluq" kimi vəsf edir. Osmanı yaşlı, səmərəsiz, bacarıqsız bir xəlifə hesab edənlərin görüşünə meyl edir.
[100] əl-Adələtul-İctiməiyyə, səh 206; 5-ci nəşr.

qohumlarından bəzi etibarlı şəxsləri yanında çalışdırmasını da eyib kimi göstərir[101].

Xəlifə Osmanın (Allah ondan razı olsun) gah İslam ruhundan uzaq düşməsindən şübhələndiyini, gah iradəsi, qətiyyəti yerində olmadığı üçün onunla oynanıldığını, hətta, Osmana qarşı edilən inqilabın İslam ruhuna daha yaxın olduğunu və s. burda qeyd etməyə utandığımız onlarla aşağılayıcı ifadələr var ki[102] Seyyid Qutubun öz əlləriylə yazdıqlarının hamısını burada qeyd edib səhabələrin qədir-qiymətini bilən oxucuların ürəyini bulandırmaq istəmirik. Seyyid Qutub özü əslində danışdıqlarının İslam ruhundan uzaq düşdüyündən xəbərsiz şəkildə bu sözləri danışırdı. Bunun əvəzində isə Kəbənin qara daşını oğurlayan rafizi-batini tayfası olan Qaramitilərin[103] müsəlman dövlətinə qarşı etdiyi üsyanın İslam ruhuyla uyğun gəldiyini iddia edirdi[104].

---

[101] Bax: eyni mənbə, səh 186.

[102] Ətraflı bax: Seyyid Qutubun öz əlləriylə yazdığı "Əl-Adələtul-İctiməiyyə" kitabı, xüsusən də səhifə "Əl-Adələtul-İctiməiyyə" kitabı, xüsusən də səhifə 186-dan 223-ə kimi.

[103] **Qaramitilər** (899-1077): Həmdan ibn Əşas (ləqəbi: Qurmut) adlı şəxsin tərəfdarları, İran körfəzinin cənub istiqamətində sahilboyu var olmuş dövlət, batini firqələrindən biri olan tayfa; Onlar əhli beyt sevgisi iddia etsələr də tarixdə radikal, cinayətkar əməlləri ilə qalmış, hətta Kəbəni işğal edib müsəlmanları qətl etmiş, Kəbənin qara daşını oğurlayıb uzun illər öz yaşadıqları diyarda saxlamışdılar.

[104] Bax: Əl-Adələtul-İctiməiyyə, səh 223. 5-ci nəşr.

O bununla kifayətlənməyərək "Bədr" əhlindən, "Rizvan" beyətindən və "Şura" əhlindən olan mühacir və ənsarlardan Osmana dəstək verənlərin öz mənfəətlərini güddüklərini, mənfəətçi olduqlarını, bərabərlik qanununu qəbul etmədiklərini və istismarçılığı seçdiklərini, beləcə, Osman tərəfində olmaqla onları tamahkarlığa düşməkdə ittiham edir[105].

O, şiə tarixçi Məsudinin səhabələrə tən etməsini də kitabında uzun şəkildə nəql edərək öz sözlərinin isbatı üçün gətirməyi də unutmur[106].

İxvanlardan səhabələrə tən edən təkcə Seyyid Qutub olmamışdır. Başqa bir çox keçmiş və müasir ixvanlar da bu məsələdə Seyyid Qutubun yolunu getmişlər. Onlardan; Mövdudi özünün "əl-Xiləfətu vəl-Mulk" kitabının 64-cü səhifəsində xəlifə Osman (Allah ondan razı olsun) barədə çirkin sözlər danışmışdır. İxvanların "Məcəllətul-Muslimin" jurnalında da Müaviyəni (Allah ondan razı olsun) təhqir edən yazı dərc edilmişdir[107].

Şeyx Bəkr Əbu Zeyd (Allah ona rəhmət etsin) demişdir: "İslam ümməti ittifaq etmişdir ki, səhabələrdən (Allah

---

105 Bax:Əl-Adələtul-İctiməiyyə, səh 193; 5-ci nəşr.
106 Ətraflı bax: eyni mənbə: səh 209-210; 12-ci nəşrdə isə səh, 175.
107 Məcəllətul-Muslimin. "3-cü nömrə, cumadə əl-əvvəl ayı, 1371 hicri, (248)".

onlardan razı olsun) birinə tənə etmək açıq-aydın zındıqlıqdır"[108].

Şəkk yoxdur ki, bu qeydi etməklə ixvanlara hökm verməyi qəsd etmir, onların bu cür sözlərinin təhlükəsini bəyan edirik. Çünki, əhli sünnə alimləri səhabələri söyməklə onları bəzi dünyəvi məsələlərdə ittiham edənləri fərqləndirmişlər. Bu isə mövzumuzdan kənar olduğu üçün üzərində dayanmayacaq, məsələni xatırlatmaqla kifayətlənəcəyik. Lakin, bu yenə də məsələnin təhlükəli olmaması demək deyildir.

Allahın səhabələri (Allah onlardan razı olsun) neçə-neçə Quran ayələrində təriflməsi, peyğəmbərin ﷺ qeyd olunan şəxsləri təriflməsi, onların fəzilətini mötəbər hədislərdə bəyan etməsi, ümmətin bu barədə icma etməsindən sonra kiminsə səhabələri aşağılamasının zərəri isə yalnız həmin aşağılayan şəxsə və onu müdafiə edənlərə, eyni fikirdə olanlara qayıda bilər.

[108] Tasnifun-Nəs beynəz-Zanni vəl-Yəqin, səh 26.

## İxvan camaatında olan digər mülahizələr:

**Tövhid və sünnə dəvətini tərk etmələri:** İxvanlar dəvətdə tövhid və sünnəyə dəvəti önə çəkmir, əqidənin islahına fikir vermirlər. İxvanların gücləndiyi Misir şirkin, qəbirpərəstliyin ən çox yayıldığı yerlərdən biri olduğu halda onların insanların əqidəsini islah etməyə yönəlik ciddi bir səyləri görünmür. Əsas məqsədlərinin tövhid deyil, "hakimiyyət" olduğu təşkilatın əvvəlindən bəlli idi. Bu gün də onların fitri İslamdan çox "siyasi İslama meyl etmələri, tövhidin üç növünə dördüncü bir növü, "hakimiyyət" tövhidini əlavə etmələri bir daha bunu göstərir.

**Özlərinə beyət[109] etdirmələri:** İxvanların batil inanclarından biri də camaatın mənəvi liderinə "ümumi liderə" beyət etməkdir. Öz ümumi liderlərinə "murşidul-am"[110] deyirlər. Bu "mürşid" sözü ilə də əvvəli sufilik yolundan gələn Həsən əl-Bənnanın sufilərin çox

---

[109] **Beyət**: bu söz şəri bir termindir və çox dəqiq, mühüm mənası var. İbn Xaldun "Tarix" kitabında deyir: "Bil ki beyət etmək itaət etmək sövdələşməsidir. Sanki beyət edən əmirinə (başçısına) müsəlmanların işlərinə və öz işlərinə nəzər yetirməsi, bu şeylərdən heç biri haqda ona qarşı çıxmayacağı, sevdiyi və sevmədiyi hallarda onu mükəlləf edəcəyi işlərdə ona itaət edəcəyi haqqında qarşılıqlı sövdələşmə edir. Bu zaman onlar əmirə beyət etdikləri, onun hökmünə razı olduqları və buna təkid olaraq əllərini əllərinin üstünə qoyduqları üçün bu əməl satıcı ilə alıcının müqavilədə əllərini əlləri üzərinə qoyub razılaşmalarına bənzəyir. (Tarixu İbn Xaldun. 1/261).

[110] Yəni: ümumi mürşid, yol göstərən, ümumi lider.

işlətdikləri bir termini seçməsi diqqətdən yayınmır. Bəli, onlar ixvanların "ümumi mənəvi liderinə" beyət edirlər. Halbuki, beyət yalnız müsəlmanların xəlifəsinə, rəhbərinə olur. Bu da onların icad etdikləri bidətlərdəndir [111]. İxvanlar ən dindar ölkədə belə müsəlman hakimə deyil, öz seçdikləri şəxsə "itaət beyəti" edirlər. "Həsən əl-Bənna özünün "ət-Təalim min Məcmuatur-Rasəil" adlı kitabında "İxvan beyəti"nin on əsası barədə danışmışdır [112].

**İyirmi qayda məsələsi:** Həsən əl-Bənna iyirmi qayda qoymuşdur və bu qaydaları İxvanlara vacib etmişdir. Hansı ki, bu qaydaların bəzilərində şəri cəhətdən ciddi mülahizələr vardır və alimlər bu mülahizələri bəyan etmişlər. Bənna dini sanki bu qaydalarla məhdudlaşdırmışdır[113].

**Təqiyyədən (yalandan) istifadə etmələri**: Bu barədə danışan araşdırmaçı onların təqiyyədən istifadə etmələrini bir çox dəfələrlə müşahidə etdikdən sonra bunu qeyd edir və yazdığı hər bir söz barədə Allaha cavab verəcəyinin məsuliyyətini də qeyd edir. Bunu üsuli fiqhdəki "səbr qaydası" na əsasən dəfələrlə ixvanlardan müşahidə etdiyini vurğulayır[114].

---

[111] Dindəki yeniliklərdəndir, hansı ki bu cür əməllər məqbul deyil.

[112] əl-Cəm'ul-Mubin li-Fətəva əl-Uləmə ər-Rabbəniyyin fit-Təhzir min hizbil-İxvanil-Muslimin, səh 130.

[113] Eyni mənbə, səh 131.

[114] Eyni mənbə, 131.

**Yalnız səfərdə əmir seçmək icazəli olduğu halda**, şəhərdə və ölkədə ölkənin başçısı olmasına baxmayaraq, bununla kifayətlənməyərək özlərinə "əmirlər" seçirlər. Bu peyğəmbərin sünnəsinə müxalifdir [115].

**Nəşidlərə qulaq asmaq;** Onlar gecə-gündüz" dini musiqi" və ya "ilahi" adlandırdıqları nəşidlərə qulaq asmaqda həddi aşırlar. Bununla bəzi təriqətlərin iddia etdiyi kimi guya "vəcdə" gəlirlər[116].

**Əhli Sünnə alimlərindən uzaq düşərək onlara pis ad və ləqəblər qoşmaq;** İxvanlar peyğəmbərin ﷺ sünnəsinə dəvət edən böyük İslam alimlərini saray alimi, vərəq alimi, heyz və nifas alimləri və s. adlandırır, alimlərin qədir-qiymətini aşağı salmağa, onları gözdən salmağa çalışırlar. Bəziləri böyük alimləri "dövlətə işləməkdə" və qorxaqlıqda ittiham edirlər. Onlar alimlərlə elm öyrənən tələbələr arasına girir, alimlərin dərslərindən öyrənməyə qarşı onları soyudurlar. Beləcə nəticə acı, sonluq pis olur; Əgər gənclər İslam alimlərindən uzaq düşərək elm öyrənsələr, onlar öz həva (kef) və həvəslərinə, onları yönəldən liderlərin verdiyi istiqamətə görə elm öyrənib şəriət və hökmləri barədə çoxlu səhvlərə yol verib o səhvləri "doğru" hesab

---

[115] Eyni mənbə, səh 131.
[116] Eyni mənbə, səh 119.

edəcəklər. Bu hal üzərində ümmət davam etdikcə peyğəmbərin sünnələri öləcək, dindən olmayan çirkin bidətlər yayılacaq və zaman keçdikcə onlar üzərində olduqları şeyi dindən hesab edəcəklər[117].

**Öz məqsədlərinə çatmaq üçün don dəyişib batil firqələrə "qardaş kimi" görünmək:**

Bundan öncə ixvanların sufi və rafizi bağlantıları barədə məlumat vermişdik. Ümumiyyətlə, ixvanlığın əsas xüsusiyyətlərindən biri də onların ümmətçiliyi şüar olaraq seçmələri, hər bir firqəyə onlarda olan batil inanclara baxmayaraq onları razı salmaq hədəflərinin olmasıdır. Onların əsas məqsədləri siyasi məqsəd olduğu üçün hədəfə çatmaq üçün ixvanlar gözlənilmədən radikal rafizi, sufi və xəvaric liderləri ilə əlaqə yaradıb onlarla ittifaqlar qura bilirlər. Bu firqələrin batil fikirləri onları maraqlandırmır. Onlar bunu rafizilər kimi "vəhdət" adlandırırlar. Onlar bu səbəblə Xomeyniyə rəhmət oxuyur, təkfirçilik təbliğatçılarına rəğbət bəsləyir, sufilərlə zahirdə bir olduqlarını nümayiş etdirirlər.

**Haramları halallaşdırmaq:** Haramları halallaşdırmaq isə ixvanların bəzi məşhur alimləri üçün adi bir şeydir. Məsələn; İxvanların müftüsü olaraq tanınan Yusuf əl-Qardavi qadınlarla əllə görüşməyi icazəli görür[(118)] Kafirlərlə dostluq etməkdə problem görmür, Roma papasına rəhmət oxumuş və onu əzəmətli alim

---

[117] Eyni mənbə, səh 135.

[118] Qadınlarla əllə görüşməyə icazə verməsi: https://youtu.be/OI5eEPWKZeo

adlandırmışdır[119]. O, dinlər birliyinə dəvət etmiş[120], Qurana müxalif olaraq yəhudilərin müsəlmanlara xristianlardan daha yaxın olduqlarını demişdir, Qur'an isə yəhudilərin iman əhlinə qarşı daha şiddətli düşmən olduğunu demişdir[121] . Həmçinin, "Bizimlə yəhudilər arasındakı düşmənçilik din düşmənliyi deyil, torpaq düşmənliyidir" demişdir[122]. Musiqini halal görmüş, özünün də musiqiləri dinlədiyini demiş[123], qadınla kişinin bir-birinə qarışmasını (ixtilatı) icazəli görmüş[124], Xomeyninin dövlətini tərifləmişdir[125]. Bir çox ixvan alimləri də özlərindən üstün gördükləri bu şəxsin fikirlərini ya tamamilə, ya da əksəriyyətini qəbul edirlər.

**Mitinq və inqilabları icazəli görmək:** Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!". (Nisa. 59).

---

[119] Papaya rəhmət və tərif: Şəriət və həyat verlişi, bax: Qutbiyyə kitabı. səh 59-60

[120] Qardavinin "dinlər birliyi"nə dəvəti: https://youtu.be/nOw0DMbdV-Q izləndi: 2020.06.04.

[121] Yəhudiləri müsəlmanlara xristianlardan daha yaxın görməsi: https://youtu.be/wrvj43sEvag izləndi: 2020.06.04

[122] Yəhudilərlə din düşmənliyinin olmamasını deməsi: (əl-Qutbiyyə, səh 59).

[123] Musiqini halal görməsi, (cavabla bir video): https://youtu.be/O8oQrY6-I8I izləndi: 2020.06.04.

[124] İxtilatı (qadınla kişinin qarışmasını) icazəli görməsi: https://www.saaid.net/female/0161.htm oxundu: 2020.06.04.

[125] Xomeyniyə rəhmət oxuması və İranı təriflməsi: https://youtu.be/W5SMF9V5GFU izləndi: 2020.06.04.

Allah Elçisi ﷺ buyurmuşdur: "Dövlət başçısını eşit və ona itaət et. Əgər o sənin kürəyinə vursa və sənin əmlakını əlindən alsa belə, ona qulaq as və itaət et"[126]. Ənəsdən rəvayət olunur ki, Allah Elçisi ﷺ buyurmuşdur: "Sizin üzərinizə qaradərili həbəşi qul belə rəhbər təyin edilsə, eşidin və itaət edin"[127]. Bu barədə hədislər və dəlillər çoxdur.

Allaha qarşı asilik əmr etmədikcə bütün mübah, icazəli məsələlərdə hakimə itaət olunur. Asilik olan işlər tərk olmaqla yanaşı halal, mübah, icazəli məsələlərdə itaətə davam edilir.

İxvanların icazəli gördükləri məsələlərdən biri də mitinqlərdir. Bu mitinqlərin etiraz forması kimi müsəlman dünyasına daxil olması qərb təfəkküründən qaynaqlanır. İslam alimləri qətiyyətlə bu mitinqlərdən və onların törətdiyi fəsadlardan çəkindirmişlər. Suriyada illərlə davam edən, yüzminlərlə insanların həyatına son qoyan qanlı müharibənin əsas səbəbi bir mitinq idi. Həmin mitinqə qəzəblənən Bəşər Əsəd mitinq iştirakçılarına divan tutduqdan sonra məsələ böyüdü və böyük bir müharibəyə, hələ illərlə zərərləri xatirələrdən çıxmayacaq acı nəticələrə gətirib çıxardı. Sonra ümmətə qarşı qərb dairələrinin əliylə bir çox məkirli planlar həyata keçirildi. Gah Mosul şəhəri bir gecədə boşaldıldı və Amerikaya məxsus silah anbarları radikal qüvvələrin

---

126 Silsilətus-Sahihə. Albani. 2739.
127 Səhih əl-Buxari. 693.

əlinə keçdi və onlara "İslam dövləti" (İŞİD) qurulacağı vəd edildi. Gah da qarışıqlıqdan istifadə edib kürdlərə dövlət qurulacaq deyə qərb dairələri kürdləri də savaşa cəlb etdi. İran, Türkiyə və başqa qonşu ölkələr də zamanla bu hadisələrə müdaxilə etməli oldu. Bir mitinqlə başlayan neçə-neçə problemləri isə insanlar bu günə kimi də görmək və anlamaq istəmirlər.

Əhli Sünnənin icmasına görə zalım və fasiq (müsəlman) hakimlərə qarşı çıxmaq icazəli deyil[128]. Hətta, kafir hakimlərə belə qarşı çıxmağın bu cür ciddi fəsadları olduğu üçün yalnız çox ciddi və məhdud bəzi şərtlərlə alimlər bunun icazəli ola biləcəyini də vurğulamış, ümumiyyətlə, bu cür aksiyaların əksəriyyətinin müsəlmanlara heç vaxt xeyir gətirmədiyini qeyd etmişlər. Bir çox alimlər əhli sünnənin zalım və fasiq rəhbərlərə qarşı çıxmağın haram olmasına icma nəql etmişlər; Bunlardan: Ənəs ibn Malik, Quteybə ibn Səid, Əhməd ibn Hənbəl, Muhəmməd ibn İsməil əl-Buxari, Əbu İbrahim əl-Muzəni, Əbu Zura ər-Razi, Əbu Hatim ər-Razi, Əbdür-Rəhman ibn Əbi Hatim ər-Razi, Harb İbn İsməil əl-Kirməni, Əbu Cəfər ət-Tahavi, Əbu-Həsən əl-Əş'ari, İbn Əbi Zeyd əl-Qayravani, Əbu Bəkr əl-İsməili, İbn Batta, İbn Battal, Əbu Osman əs-Sabuni, İbn Abdil-Bərr, əl-Əsbəhəni, Əbu Zəkəriyyə ən-Nəvəvi, Əbul-Abbas ibn Teymiyyə, İbn Qeyyim əl-Covziyyə, İbn Həcər əl-Əsqalani, Abdullətif ibn Həsən Əli Şeyx, Siddiq

---

[128] Bax: Şubuhət həvləl-Xuruc vəs-Sovrat, səh, 169-184.

Həsən Xan, İbn Useymin, Saleh əl-Fövzan, Saleh Əli Şeyx, Əbdüləziz ər-Racihi və s[129].

İmam Hüseyn (Allah ondan razı olsun) haqq üzərində olduğu halda onu aldadıb yürüş etdirənlərin fitnəsindən sonra İslam alimləri yürüş və mitinqlərin çoxsaylı fəsadları, qan tökülməsi, rəhbərin heybətinin düşməsi ilə fitnələrin daha da çoxalması və s. bir çox zərərlərini nəzərə alıb, əsasən də peyğəmbərin ﷺ müsəlman hakimə qarşı çıxmaqdan çəkindirən hədislərinə əsaslanaraq bu cür əməlləri qadağan etmişlər. İmam Hüseynin (Allah ondan razı olsun) faciəsi də belə bir fitnə nəticəsində olmuş, həmin faciə bu günə kimi İslam aləmində böyük bir fitnəyə səbəb olmuşdur. İmam Zəhəbi Səid ibnil-Museyyibdən onun belə dediyini rəvayət edir: "İmam Hüseyn yola çıxmasaydı, onun üçün daha xeyirli olardı"[130]. Çünki, onun çıxmağı ilə ümmətdə daha böyük parçalanma çıxdı və qanlar axıdıldı. Səhabələrin böyüklərindən və tabeinlərdən neçəsi ona mane olmaq istəsələr də lakin imam Hüseyn onları dinləmədi. Ona dəstək vəd edənlər isə onu yardımsız qoydular. Sonda isə böyük bir faciə yaşandı. Peyğəmbərin ﷺ sevimli nəvəsi amansızcasına qətl edildi. Əgər tarixə diqqətlə nəzər yetirsək, mitinq və yürüşlərin əksəriyyəti böyük zərərlər, can və mal itkisi ilə nəticələnmişdir. Ağıl sahibləri isə bu hadisələrdən ibrət almalıdırlar.

---

[129] Bax: öncəki mənbə. səh. 169-184.

[130] Cavab əhli-Sünnə ən-Nəbəviyyə fi Naqdi Kələmiş-Şiə vəz-Zeydiyyə. səh. 72.

**Bir-birinin batilinə göz yummaq:** İxvanların batili inkar etmək, yaxşılığı əmr etmək kimi şəriətin əzəmətli qaydalarını heçə saymaları, batil əhlini islah etməyə çalışmamaları, əsas siyasi hədəflərini düşünmələri məlum məsələdir. Onların batil əhli ilə birləşmədə ən məşhur qaydaları isə budur: ***"İxtilaf etdiyimiz şeylərdə bir-birimizə üzr axtaraq, ittifaq etdiyimiz şeylərdə yardımlaşaq"***[131].

Onlar bu qaydaya əsasən bütün batil əhli ilə zahirdə birləşə bilir, lakin, bu birləşmələrin bərəkəti olmur. Elmdən azacıq payı olan insanlar asanlıqla bu qaydanın batil olduğunu anlaya bilərlər.

Dahi İslam alimi İbn Useymin (Allah ona rəhmət etsin) bu qaydanın batil olmasını izah edərək demişdir: "Bu cümlə hər iki tərəfdən batildir. Çünki, birinci cümlədəki "*İxtilaf etdiyimiz şeylərdə bir-birimizə üzr axtaraq"* sözü, bəzi fəqihlərin bu sözü kimidir: ictihadi məsələlərdə inkar yoxdur. Çünki, bu ibarə fəqihlərə məlumdur. Bu mənanı mütləq şəkildə (istisnasız) demək doğru deyil. O məsələdə ki, ixtilaf etdikdə müxalif olan kimsəyə üzr yeri qalmayacaq şəkildə haqq aydın olmazsa, bəli, o zaman ona üzür gətiririk. Çünki, onun da rəyi var, bizim də rəyimiz var. Amma, əgər haqq açıq-aydın ortada olarsa,

---

[131] Hizbul-İxvanul-Muslimin fi Mizənil-İsləm, səh 83.

bu zaman biz müxalif olana üzür gətirmirik. Ona görə də bu cümlə mütləq şəkildə doğru deyil.

**İkinci cümlədəki:** "*<u>İttifaq etdiyimiz şeylərdə yardımlaşaq</u>*" sözləri də doğru deyil. Çünki, əgər biz batil üzərində ittifaq etsək, bizə bir-birimizə yardım etmək halal olmaz. Əksinə, hər iki tərəfə bir-birinə bu batili qadağan etmək vacib olar. Bu ikinci cümlə buna görə mütləq mənada götürülməsi doğru deyil. Bunu deyən insan ola bilsin ki, batil olmayan və şəriətə zidd olmayan bir şeyi qəsd etsin. Lakin, birinci cümləyə etiqadda və İslam metodunda yolundan sapmış insanlar da daxil olur. Hansı ki, onlar belə deyirlər: "İxtilaf etsək də gərək biz İslam kölgəsi altında kölgələnək". Ona görə də onlar öz partiyalarına hər cür günahları işləyən, üzünü qırxan, siqaret çəkən, namaza səhlənkar yanaşan insanları daxil edirlər ki, bu doğru deyil. Bunun kimi o kəs ki, "ya insanların hamısının mütləq şəkildə - kiçik və böyük bütün məsələlərdə - çox saleh olmalarını, ya da bizim qardaşımız ola bilməyəcəyini" deyirsə, bu da doğru deyil.

Sonra şeyx əlavə edərək deyir: "Bu qayda" qızıl qayda" deyil, "keçici qayda"dır. Qayda olmağı da haqq etmir. Əksinə, o şeydə ki ittifaq etmişik, bu, bizə Allahın bir nemətidir. İttifaq ixtilafdan daha xeyirlidir. İxtilaf etdiyimiz məsələlərdə isə müxalif olan kimsə ola bilsin ki üzürlü olsun, ola bilsin ki üzürlü olmasın. Əgər ixtilaf bu ixtilafın icazəli olduğu bir şeydədirsə, bunda bir problem yoxdur. İmamlar hələ də ixtilaf edirlər. (Köhnələrdən) İmam Əhməd, Şafi, Malik, Əbu Hənifə ixtilaf etmişlər. Amma,

əgər ixtilaf əqidə məsələləri kimi üzürlü olmayan məsələlərdədirsə, onda bir-birimizə (ittifaq etmək üçün) üzür gətirə bilmərik. Əksinə, bizə vacib olan Quran və Sünnənin dəlalət etdiyi yola qayıtmaqdır. Hər bir bidət əhlinə vacibdir ki, Qur'an və Sünnəyə qayıtsın… Bu qayda "qızıl qayda" deyil, Bu qaydaya "taxta qaydası" deməyin yaxşı olar.

İndi bildin ki, hansı məsələdə ictihad etmək icazəlidir. Belə məsələlərdə (fiqhi cəhətdən ixtilaf icazəli olan mövzularda) müxalifə icazə verməkdə problem yoxdur. Lakin, ictihadın icazəli olmadığı əqidə məsələlərində sələfə müxalif olmaqda onlara üzürxahlıq yoxdur[132]. Şeyxin sözü burada bitir.

Həsən əl-Bənnadan soruşurlar ki, başqa dəvətlərin həqiqəti necə bilinir? Cavabı bu olur ki: "Bizim dəvətimizə ərz edilməklə"[133]. Bizsə onların dəvətini peyğəmbərin və səhabələrin dəvətinə ərz edəndə görürük ki, buna müxalif olmuşlar. Görəsən hansı düz, hansı səhvdir?

**Mühüm məsələlərdən biri odur ki, sələfilərlə ixvanları fərqləndirməyi bacarmayanlar** daim ixvan dəvətçilərin verdikləri qəribə fətvaları və ya qəribə hərəkətləri sələfilərin adına yazıb "vəhhabilər belə etdi"

---

132 Mənbə: Liqa əl-Məftuh. İbn Useymin. 75. hicri 1415-ci il, cumadəl-u'lə ayı.

133 Hizbul-İxvanul-Muslimin fi mizanil-İsləm. səh 162.

kimi başlıqlarla paylaşırlar. Məsələn; ixvan dəvətçi Muhəmməd ən-Nuceymi sələfilərdən fərqli olaraq qadınlarla kişilərin bir arada oturmasını, bir-birinə qarışmasını icazəli görür. Bir məclisdə qadınla bitişik, yanbayan oturur və bəziləri bu videonu[134] çəkib ərəbcə: "Biabırçılıq, "vəhhabi" Nuceyminin qadınla yanyana oturdu" başlığı altında yayırlar. Belə misallar çoxdur, hansı ki sıravi insanlar bu halları fərqləndirə bilmirlər.

[134] Videonun linki: https://youtu.be/qEDQVDoQF00 daxil olma tarixi: 2020/06/03

## Son söz

Möhtərəm oxucu! Bu risalə son dərəcə müxtəsər olaraq "Müsəlman qardaşlar" təşkilatı barədə bəzi bilgilər verdi. Mövzumuz əsasən bu təşkilatın və ya camaatın nümayəndələrinin hansı etiqadi fikirləri daşıması olsa da, bir qədər az da olsa onların hansı ictimai və siyasi meyillərinin olmasına toxunduq. Yazıda camaatın tarixi ilə əlaqədar kiçik bir ixtisar verilsə də əslində çox geniş tarixi prosesləri özündə əhatə edən təxminən doxsan illik bir tarixi kiçik səhifələrdə ifadə etmək mümkünsüzdür. Bizim fərqləndirmək istədiyimiz tərəf çox insanların bu camaatı sələfi camaatla qarışdırmalarına fikir bildirmək, hansı fərqlərin olmasını elə bu yazıdakı mülahizələrlə ortaya qoymaq idi. Tövhid və sünnə çağırışlarında orta mövqedən ya ifrata, ya da təfritə düşmüş, bütün camaatlar və tayfalar bəzən insanlara "din qeyrəti" çəkirmiş kimi görünə bilər. Haqdan uzaqlaşmış elə bir tayfa yoxdur ki, onlara öz şübhələri "bəzəkli" görünməsin.

Bizi ixvanlarla bağlı narahat edən məsələlərdən ən mühümü də onların alimlərinin və böyük dəvətçilərinin təkfir mövzularında vardıqları ifrat mövqeni bir çox bu camaata rəğbəti olanların bilməməsi və ya bilməməzlikdən gəlməsi idi, mühüm məsələlərdən biri də onların digər bir çox fikirlərinin İslamın təməl prinsiplərinə müxalif olan bəzi tərəflərini bəyan etmək idi. Ümumiyətlə, bu risalə maarifləndirmə məqsədi ilə

yazılmışdır. Müvəffəq edən Allahdır! Sonda peyğəmbərə, onun ailəsinə və sahabələrinə Allahın salavatı və salamı olsun!

# İstifadə edilmiş ədəbiyyat:

**1 -** əl-İxvan əl-Muslimun vəl-Kəhnut əl-Muqaddəs, Muhəmməd Nəbhən, 2013.

**2 -** Vaqafat məa Kitəbid-Duət Faqat, Muhəmməd ibn Seyf əl-Acmi, 1988.

**3 -** Əli ən-Nədvi, Təfsirus-Siyəsi lil-İsləm, 2007.

**4 -** Muzəkkirat Dəaviyyə vəd-Dəiyəh, 5-ci nəşr, 1403 h.

**5 -** əl-Xutut əl-Ariyda li-Camaatil-İxvan əl-Muslimin, Numan əl-Vitr, elmi iş, 2015.

**6 -** Covlət fil-Fiqheyn əl-Kəbir val-Əkbər, Səid Həvva. İkinci nəşr, 1981.

**7 -** Fi Zilalil-Quran, Seyyid Qutub.

**8 -** Məcəllətud-Dəvət, Ixvanların Dəvət jurnalı, 50-ci illərdə Misirdə İxvan camaatının fikirlərini dərc edib yayan ən böyük mətbu orqan.

**9 -** əş-Şaqiqan, Əbül-Əla əl-Mövdudi, 2017.

**10 -** Kəşful-Aləqatul-Muriybə beynəş-Şiəti vər-Rafidati və hizb əl-İxvan əl-Muslimin. Xalid ibn Osman əl-Mısri. 2008.

**11 -** Seyyid Qutub vər-Rafidatu həqaiq və vəsaiq, Muhəmməd ibn Avad əl-Mısri. 2014..

**12 -** əl-Cəm'ul-Mubin li-Fətəva əl-Uləmə ər-Rabbəniyyin fit-Təhzir min hizbil-İxvanil-Muslimin, Xalid Osman əl-Mısri.

**13 -** əl-İxvan əl-Muslimun Əhdəsun Sanəat-Tərix, Mahmud Əbdül-Həlim, 5-ci nəşr, 1994.

**14 -** əl-İxvan əl-Muslimun Fi Mizanil-Haqq, Ənvər əl-Cundi, 1946.

**15 -** Əvləviyyət əl-Haraka əl-İsləmiyyə. Yusuf Qardavi.
**16 -** əs-Sahih, Muhəmməd ibn İsməil əl-Buxari, 2010.
**17 -** əl-Qardavi fil-Mizan, Suleyman əl-Xuraşi, 2006.
**18 -** Hizbul-İxvanul Muslimin fi mizanil-İsləm, Abdul-Kərim ibn Əhməd. Qahirə. 2011.
**19 -** "Hədisis-Suləsə", Həsən əl-Bənna. Həsən əl-Bənnanın həftənin hər ikinci günü keçdiyi dərslərinin sonradan cəm olunduğu kitab.
**20 -** Ədva İslamiyyə alə aqidəti Seyyid Qutub va Fikrihi, şeyx Rabi əl-Mədxəli.
**21 -** Silsilətus-Sahihə, şeyx Nasirəddin Albani. 2006.
**22 -** Təfsirul-Qurtubi «əl-Cə'miu li-Əhkəmil-Quran' ən» Qurtubi, 2006.
**23 -** "Rasəil və Məsəil", Əbül-Əla əl-Mövdudi. 1994.
**24 -** əl-Əcvibətul-Mufidə an əs'ilətil-Mənəhic əl-Cədidə, 2003. 3-cü nəşr.
**25 -** Kutub və Şəxsiyyət, Seyyid Qutub. 3-cü nəşr, 1983.
**26 -** Əl-Adələtul-İctiməiyyə, Seyyid Qutub.
**27 -** əl-Xiləfətu vəl-Mulk, Mövdudi. 1978.
**28-** "Məcəllətul-Muslimin", Misirdə fəaliyyəti dayandırıldıqdan sonra 1955-ci ildə Suriyada Mustafa Sibəi tərəfindən fəaliyyətə başlamış ixvan jurnalı.
**29 -** Tasnifun-Nəs beynəz-Zanni vəl-Yəqin, Bəkr Əbu Zeyd. 1995.
**30 -** Sahihi Muslim, Muslim ibnil-Həccac ən-Nisaburi. 2006. Tayyibə nəşr evi.
**31 -** Şubuhət həvləl-Xuruc vəs-Sovrat, Əbu Əbdür-Rəhman Mahmud ibn Əbdül-Həmid əl-Xovli, 2012. 2-ci nəşr. Misir.

**32 -** Kəşfu Şubəh Əhli Daləl va Kitəbut-Təbliğ Fədailil-Əaməl, Muhəmməd ibn Nasir əl-Ureyni, 2014. 3-cü nəşr. ər-Riyad.
**33** - Teysiru Mustalah əl-Hədis. Dr. Mahmud ət-Tahhan. səh. 21-22. Misir nəşri. 1415 hicri.
**34** - Mənəhicud-Dəvət vət-Təyyarat əd-Diniyyə vəl-Fikriyyə. Əbdür-Rəhim Muğazzəvi. 2019. Darul-Hadara.

## Mündəricat

Müqəddimə……………………………………………….3
İxvanul-Muslimin camaatının qısa tarixi………………..5
İxvanların növləri haqqında qısa bilgi…………..……12
İxvan alimlərinin bəzi batil inancları……………………14
Übudiyyə (İbadət) tövhidində şirkə laqeyd yanaşmaq..14
Üluhiyyə tövhidində şirkə laqeyd yanaşmaq……….…15
Hərəkatın qurucusunun özü sufi olmuşdur……..……. 16
Hərəkatın etiqadi əsasları maturudilik və əşarilik üzərində qurulmuşdur……………………..……………. 17
Vəla vəl-Bəra (dost-düşmən) anlayışının zəifliyi, bəzilərində isə yoxluğa yaxın həddə olması…………..20
İfrat sufiliyin "vəhdətil-vücud" etiqadı…………….……20
İxvanul-Muslimin" camaatının rafizi sevgisi…………...21
İxvanul-Muslimin camaatının təkfir fikirləri……….…...23
Peyğəmbərlərə qarşı ədəbsiz ifadələr…..………………..31
Peyğəmbərin möcüzələrinin və hədislərin inkarı………34
İxvanlarda səhabələrə dil uzatmaq məsələsi…..……...37
İxvan camaatında olan digər mülahizələr……………...42
Tövhid və sünnə dəvətinə biganəlik……………………42
Özlərinə beyət etdirmələri…………………...………..42
İyirmi qayda məsələsi……………………………………43
Təqiyyədən (yalandan) istifadə etmələri……...……..43
Səfərdən başqa hallarda özlərinə əmir seçmək…...…44
Nəşidlərə qulaq asmaqda həddi aşmaq……………… 44
Sünnə alimlərinə pis ad və ləqəblər qoşmaq……..….. 44
Öz məqsədlərinə çatmaq üçün don dəyişib batil firqələrə qardaş kimi görünmək……………………………..…….45

Haramları halallaşdırmaq………………………………. 45
Mitinq və inqilabları icazəli görmək……………………46
Bir-birinin batilinə göz yummaq……………..………50
Son söz…………………………………………………54
İstifadə edilmiş ədəbiyyat……………………..……..56
Mündəricat……………………………………….…. 59

**Qeyd:** Hörmətli oxucular!  Şəkk yoxdur ki əlinizdəki bu kitab insan əməyinin bəhrəsidir. Ona görə kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki kitab haqqında hər hansısa mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:

sahibfarmanoglu@gmail.com

**Kitabın adı:**
İxvanlar kimlərdir və
nəyə xidmət edirlər?
**Müəllif:** Sahib Əsədov
**Səhifələrin sayı:** 58
**Kitabın yazılma tarixi:** *06.06.2020*
**Son redaktənin tarixi:** 12.10.2022
**Kağız ölçüsü**: A5 (14.08 cm × 21.00cm)

## Qeydlər:

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

.............................................................................

## Qeydlər:

.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................
.....................................................................